

### ERMƏNİSTANDAN TƏZMİNAT TƏLƏB EDİLİR

İşğal dövründə Ermənistan Azərbaycanı qanunsuz olaraq öz enerji resurslarına çıxış və onları inkişaf etdirmək imkanlarından məhrum edib. Bu dövrdə işğalçı ölkə həmin resursları öz istifadəsi və mənfəəti üçün zəbt edib.

SƏHİFƏ 2-də

# MİŞELİN GEDİŞİ VƏ BRÜSSEL FORMATI



Şarl Mişelin gedişi ilə Brüssel formatı da tarixə qovuşa bilər. Sülh prosesinin uğurlu nəticələnməsi üçün ikitərəfli danışıqlar formatının əhəmiyyəti getdikcə daha da artır.

Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Avropa Parlamentinə keçiriləcək seçkilərdə iştirak etmək niyyətindədir. O, iyulun ortalarında vəzifəsindən gedəcək. Şarl Mişelin səlahiyyət müddəti 2024-cü ilin noyabrında başa çatır, seçkilər isə bu ilin iyulunda keçiriləcək.

Bu addım Aİ ölkələrini çətin vəziyyətə salıb. Səbəb isə son illərdə müstəqil və ölkəsinin maraqlarına uyğun siyasət yürütməklə ad çıxarmış Macarıstanın Baş naziri Viktor Orbandır. Viktor Orban Aİ Şurasının rəhbəri Şarl Mişel istefa verəcəyi təqdirdə, müvəqqəti olaraq təşkilata rəhbərlik edə bilər.

SƏHİFƏ 5-də


'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

www.kaspi.az

13 YANVAR ŞƏNBƏ 2024 I 01 (4152) Qiyməti - 40 qəpik




### HƏM XƏSTƏLƏR, HƏM DƏ HƏKİMLƏR GÖZLƏYİRLƏR

Xəstə xəstəxanaya tək müayinə üçün deyil, müalicə olunmaq üçün gedir. İcbari tibbi sığorta müayinələri pulsuz edir. Amma müayinə başlanğıcdır. Nəticə reseptdir, müalicədir.

SƏHİFƏ 10-da





### Aİ-DƏ DAXİLİ ZİDDİYYƏTLƏR ARTIR

Aİ daxilində ziddiyyətlərin bu il də davam edəcəyi əsas proqnozlar və ehtimallar sırasındadır. Hətta qurumun dağılacağı ilə bağlı mülahizələr irəli sürülür. Ukrayna müharibəsi, Yaxın Şərqdə yaşanan hadisələrə münasibət qurum daxilində fikir ayrılıqlarını daha da gücləndirib.

SƏHİFƏ 6-da

## "ZƏNGƏZUR DƏHLİZİ OLMADAN SƏRHƏDLƏR AÇILMAYACAQ"

# İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ

Modern Azərbaycanın tarixində yeni mərhələyə start verilir: Qarabağ və Şərqi Zəngəzura qayıdış. Bu proses postmüharibə mərhələsinin başlıca trendi olacaq.

**SENTYABRA QƏDƏR GETDİYİMİZ YOL**

Prezidentin də qeyd etdiyi kimi, 2023-cü ilin sentyabrı yeni mərhələnin başlanğıcıdır: "Sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi.

**SÜLH AYRI, SƏRHƏDLƏR AYRI**

Dövlət başçısı yerli televiziya kanallarına müsahibəsində Ermənistanla sülh müqaviləsi kontekstində yeni dövrün reallıqlarını əks etdirən daha bir tezis səsləndirdi: Ermənistanla sülh müqaviləsi və sərhədlərin müəyyənləşdirilməsi ayrı-ayrılıqda baxılacaq və çözüləcək məsələlərdir.

SƏHİFƏ 4-də



### TÜTÜNÇÜLÜKDƏ GƏLİR AZ, ƏZİYYƏT ÇOXDUR

Azərbaycanda tütün yarpağı yığımında azalma müşahidə edilir. Bunun səbəbi məhsula verilən dəyərin az, zəhmətinin isə çox olmasıdır. Tütünçülüyün inkişafı üçün kompleks tədbirlərin görülməsinə ehtiyac var.

SƏHİFƏ 12-də



### ŞOKOLAD SEVƏNLƏR ÜÇÜN BƏD XƏBƏR

Ölkəmizdə şokolad məhsulları ilə bağlı daxili istehsal tələbi ödəyir. Amma onların xammalı xaricdən gətirilir. Dünyada qəhvə və kakaonun qiymətinin yüksəlməsi prosesi davam edərsə, 2024-cü ildə daxili bazarımızda da şokolad məhsullarında qiymət artımının şahidi olacağıq.

SƏHİFƏ 13-də

## "Mənim də ürəyimi işğal etmişdilər"

# "YALNIZ BƏDİİ FİLM ÇƏKƏNDƏ XOŞBƏXT OLURAM"




**Kinorejissor Ayaz Salayev:** "Mənim üçün rejissorluq daha öndədir. Ən yüksəyi bədii film çəkməkdir. Qalan şeylər fəaliyyətdir, bəzən məni yoran işlərdir. Bədii film çəkmək imkanımı heç nəyə dəyişmərəm, qalan şeyləri isə dəyişərəm. Mən film çəkəndə yorulmuram, özümü rahat hiss edirəm. Yüz faiz bilirəm ki, müəllimlik həyatımın mənası deyil.

SƏHİFƏ 8-9-da



### HAVAMIZI ÇİRKLƏNDİRƏN KÖHNƏ MAŞINLAR

Hazırda istismar müddəti bitmiş köhnə nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı müvafiq tədbirlər görülür. Fevral ayından artıq bu sistem işə başlayacaq. Ödəmələr olunması üçün fond yaradılır.

SƏHİFƏ 14-də



Onlar doğma torpaqlarında səs verəcəklər

SƏHİFƏ 2-də



İstanbul hər addımda təəccübləndirir

SƏHİFƏ 11-də



"Petkim" liderliyi qoruyub

SƏHİFƏ 2-də



"Xahiş etdilər ki, portreti Ankaraya aparım"

SƏHİFƏ 15-də



Futbol klublarımızın "qış bazarlığı"

SƏHİFƏ 16-da

Kaspi ÜÇ ƏSRİN QƏZETİ





## ONLAR DOĞMA TORPAQLARINDA SƏS VERƏCƏKLƏR

Prezident seçkilərini qeyri-rəsmi olaraq "Zəfər seçkiləri" adlandırırıq. "Report"un xəbərinə görə, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov "Vətəndaşların seçki hüququnun təmini" mövzusunda dəyirmi masada çıxışı zamanı deyib.

MSK sədri qeyd edib ki, bu, azad olunmuş ərazilərdə və bütün Azərbaycanda keçirilən ilk seçkidir. O xatırladıb ki, azad olunan ərazilərdə yaradılan 26 seçki məntəqəsinin 20 mindən artıq seçicisi var. M.Pənahov qeyd edib ki, səsvermədə artıq öz doğma yurduna qayıdanlarla birlikdə, azad olunmuş ərazilərdə tikinti-quraşdırma işlərinə cəlb olunmuş insanlar da seçki hüququ olan şəxslərdir. "Onlar da səsvermədə iştirak edəcəklər. Prezident seçkilərini Azərbaycanda son illərdə formalaşmış yüksək əhval-ruhiyyəyə uyğun başa vurmalıyıq. Azərbaycanın ərazi bütövlüyü artıq təmin olunub. İlk dəfə olaraq Azərbaycanın bütün bölgələrində, beynəlxalq miqyasda tanınan ərazilərində seçki keçiriləcək".



## QAR YAĞACAQ, GÜCLÜ KÜLƏK OLACAQ

Azərbaycanın qərb rayonlarından başlayan yağıntılı hava şəraitinin sentyabrın 15-i səhərədək davam edəcəyi, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensiv olacağı ehtimalı var. Yanvarın 15-i səhər saatlarından yağıntılar tədricən kəsiləcək, gündüz əsasən yağmursuz hava şəraiti müşahidə olunacaq. Bu barədə "Report"a Milli Hidrometeorologiya Xidmətinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova məlumat verib.

Onun sözlərinə görə, Bakıda və Abşeron yarımadasında yanvarın 13-ü səhərdən 14-ü axşamadək havanın arabir yağıntılı olacağı, yağışla başlayan prosesin sulu qara, bəzi ərazilərdə qara keçəcəyi gözlənilir: "Yanvarın 14-ü isə gecə və səhər yarımadanın bəzi ərazilərində yağıntıların intensivləşəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək, 13-ü səhərdən 14-dək 15-20 m/s, arabir 23-28 m/s, 13-ü səhər və gündüz isə yarımadanın bəzi yerlərində arabir 30-32 m/s-dək güclənəcək".



# ERMƏNİSTANDAN TƏZMİNAT TƏLƏB EDİLİR

İşğal dövründə Ermənistan Azərbaycanı qanunsuz olaraq öz enerji resurslarına çıxış və onları inkişaf etdirmək imkanlarından məhrum edib. Bu dövrdə həmin resursları öz istifadəsi və mənfəəti üçün zəbt edib.

Niderlandın Haaqa şəhərində yerləşən Daimi Arbitraj Məhkəməsinin mənzil-qərargahında Enerji Xartiyası Müqaviləsinə əsasən, Azərbaycanın Ermənistana qarşı qaldırdığı dövlətlərarası arbitraj çərçivəsində prosessual iclas keçirilib.

### KOMPENSASİYA TƏLƏBİ İLƏ ARBİTRAJ PROSESİ BAŞLAYIB

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, iclasda ölkəmizi Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Bildirilib ki, ötən ilin fevral ayının 27-də Azərbaycan Ermənistanın Enerji Xartiyası Müqaviləsinin çoxsaylı müddəalarını və beynəlxalq hüququn prinsiplərini pozmasına əsasən, kompensasiya tələbi ilə arbitraj prosesinə başlayıb.

Azərbaycanın arbitraj bildirişində, Ermənistanın 30 ilə yaxın qanunsuz işğal etdiyi Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ bölgəsində yerləşən enerji resursları üzərində ölkəmizin suveren hüquqlarını tanımaqdan və onlara hörmətdən imtina edərək, beynəlxalq öhdəliklərini pozduğu izah edilib.

Qeyri-qanuni işğal dövründə Ermənistan Azərbaycanı qanunsuz olaraq öz enerji resurslarına çıxış və onları inkişaf etdirmək imkanlarından məhrum edib, habelə həmin resursları öz istifadəsi və mənfəəti üçün zəbt edib. Azərbaycanın Qarabağ bölgəsində mövcud zəngin su, külək və günəş enerjisi ehtiyatlarından istifadəsinin də qarşısı alınıb.

### İŞ ÜZRƏ QƏRARI ONLAR VERƏCƏKLƏR

Arbitraj prosesi, məsələnin Azərbaycan və Ermənistan arasında diplomatik danışıqların bir neçə raundunda qənaətbəxş həllin tapılmamasından sonra Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq başlanıb. İş üzrə qərar hər iki tərəfdən təyin edilmiş üç hakimdən ibarət arbitraj məhkəməsi tərəfindən qəbul ediləcək. Arbitraj məhkəməsindən Ermənistanın Enerji Xartiyası Müqaviləsi üzrə qanuni öhdəliklərinə əməl etməməsi ilə bağlı qəti qərarın verilməsi və beynəlxalq hüquq normalarına uyğun olaraq ədalətli təzminat tələb edilməsi sorğu olunub.

# "PETKİM" LİDERLİYİ QORUYUB SAXLAYIB

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki yatırımı olan "Petkim" neft-kimya kompleksi 2023-cü ildə 557 milyon ABŞ dolları ixrac gəliri əldə edib.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki yatırımı olan "Petkim" neft-kimya kompleksi 2023-cü ildə Egey İxracatçı Birlikləri tərəfindən "İxracatın ulduzları" siyahısında həm ümumi reytinqdə, həm də kimya kateqoriyasında birinci yeri tutub.

"Report" xəbər verir ki, bu barədə "SOCAR Türkiyə" "X" sosial şəbəkəsindəki hesabında paylaşıb.

Bildirilib ki, 2022-ci ildə olduğu kimi, 2023-cü ildə də ixrac sahəsində öz mövqeyini qoruyan "Petkim" 557 milyon ABŞ dolları ixrac gəliri əldə edib. 2021-ci ildə şirkətin ixrac gəlirləri 810,9 milyon ABŞ dolları, 2022-ci ildə isə 913 milyon ABŞ dolları səviyyəsində olub.

"Petkim"in mükafatları "SOCAR Turkey"in Neft Emalı və Neft-Kimya İş Bölməsinin prezidenti vəzifəsini icra edən Kənan Mirzəyeva İzmir valisinin müavini Kamil Köten və İzmir Ticarət Palatasının sədr müavini Emre Kızılgüneşler təqdim edib.




Qeyd edək ki, əsası 1965-ci il aprelin 3-də qoyulmuş "Petkim Petrokimya Holding" Türkiyənin aparıcı neft-kimya kompleksidir. Kompleksdə plastik kütlə, tekstil məmulatları, eləcə də digər istehlak və sənaye mallarının istehsalında istifadə olunan etilen, polietilen, polivinilxlorid, polipropilen və digər neft-kimya məhsulları istehsal edilir. İndiyədək Türkiyənin ilk və yeganə inteqrasiya olunmuş neft-kimya obyekti olan "Petkim"in təkmilləşdirilməsi üzrə işlərə 1,6 milyard ABŞ dolları həcmində investisiya qoyulub.

"SOCAR Turkey" şirkəti "Petkim Petrokimya Holding"in nəzarət səhm paketinin sahibidir.

# AZƏRBAYCAN-BƏƏ: İKİ GÜC BİRLƏŞİR



Cənubi Qafqazın oyunçusu Azərbaycanla Körfəz ölkələrinin aktoru BƏƏ "eyni cəbhədə" birləşir. Bu birlik modeli daha geniş regional münaqişələrdən sığortalanmaq üçün iqtisadi-ticari platformaların inkişaf etdirilməsi potensiallarını yoxlamağa xidmət edir.

AQŞİN KƏRİMOV

Bu həftə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycanda səfərdə olub, Bakıda dövlət başçısı İlham Əliyevlə görüşüb.

BƏƏ Prezidentinin Azərbaycana ilk səfəri rəsmi Bakının genişlənən xarici siyasəti fonunda diqqət çəkir. Bu siyasətin istiqamətlərində Körfəz ölkələri ilə əməkdaşlıqda diqqət çəkən perspektiv layihələrin işlənib hazırlanması prosesi də yer alır.



Bu mənada BƏƏ Prezidentinin Azərbaycana səfərinin hansı nəticələrə hədəfləndiyini təyin edən izlərə düşərkən ikitərəfli münasibətlərin strateji məqsədlərdəki yerinə diqqət etmək faydalıdır.

**İKİ REGİONAL GÜC**

Şiddətlənən beynəlxalq və regional siyasi qütbləşmələr fonunda Azərbaycan və BƏƏ yerləşdiyi müvafiq regionlarda öz profillərini qaldırmağı bacarıblar.

Qütbləşmə arasında sıxılan və çətin seçimlər qarşısında qalan dövlətlərdən fərqli olaraq, Azərbaycan və BƏƏ toqquşmaların təsirlərindən sığortalanmaq üçün strateji müdafiə siyasətinə malikdir.

Deməli, ilk olaraq bu amil nəzərdə saxlanılmalıdır - Cənubi Qafqazın oyunçusu Azərbaycanla Körfəz ölkələrinin aktoru BƏƏ "eyni cəbhədə" birləşir. Bu birlik modeli daha geniş regional münaqişələrdən sığortalanmaq üçün iqtisadi-ticari platformaların inkişaf etdirilməsi potensiallarını yoxlamağa xidmət edir. BƏƏ-nin strateji tutumu ilə bağlı ümumi mənzərəni ifadə edəcək təsvirlər verdikdən sonra Azərbaycanla əlaqələrin dinamikasında hansı irəliləyişlər ola biləcəyi aydınlaşa bilər.

**BƏƏ-NİN QLOBAL SƏHNƏDƏKİ TƏSİR GÜCÜ**

Belə ki, BƏƏ çoxşaxəli qlobal mənzərədə inkişaf etmək qabiliyyətinə görə diqqət çəkir. Ölkənin Afrika, Asiya və Avropanın kəsişməsində yerləşən strateji coğrafi mövqeyi ona mühüm ticarət mərkəzi kimi özünü göstərməyə imkan verib. BƏƏ yaxşı iqtisadi idarəçiliyə və texnokratiyaya üstünlük verərək, öz rolunu daha da möhkəmləndirir.

BƏƏ əhalisinin az olmasına baxmayaraq, zəngin neft ehtiyatlarına görə əhəmiyyətli təsir gücünə malikdir. Nüfuzlu "The Economist" nəşrinin qənaətincə, bu sərvət ölkəyə qlobal səhnəyə ölçüsündən daha böyük təsir göstərməyə imkan verir. Ancaq BƏƏ-nin geosiyasi mövqeyi mürəkkəbdir, siyasi və iqtisadi bölgülər içərisindədir. Ölkə ABŞ ilə sıx müttəfiqliyini qoruyub saxlasa da, daha çox Çinlə ticarətə arxalanır. Bununla belə, BƏƏ Yaxın Şərqdə davam edən münaqişələr və qlobal güc mübarizələrinə rəğmən çiçəklənməyə davam edir.

## "ZƏNGƏZUR"A TÖHFƏ



Bu nöqtədə yaxınmüddətli və uzunmüddətli strateji konturları cızacaq Zəngəzur dəhlizi layihəsinə BƏƏ-nin hansı formada dəstək verəcəyi məsələsi gündəmə gəlir. Düzdür, bununla əlaqədar BƏƏ-dən konkret bəyanatlar səslənmir, lakin onu göstərəcək başqa ipucларını Körfəz ölkəsinin diqqət yetirdiyi kursda tapmaq olar. BƏƏ-nin iqtisadi və diplomatik fəaliyyəti iqtisadiyyatlar arasında ticarətin regiondan maneəsiz şəkildə keçməsinə imkan verən dəhlizlərin inkişafına əsaslanır. Zəngəzur dəhlizi Azərbaycanın Mərkəzi Asiya ilə əlaqələrində yüksək dinamikanı əbədiləşdirən faktora çevrilir ki, bu da BƏƏ-nin maraqları kontekstində qiymətlidir. "Gulf State Analytics"in yazdığına görə, BƏƏ onun strateji baxışlarına uyğun gələn geosiyasi və geoiqtisadi məqsədlərə nail olmaq strategiyalarına əsaslanaraq, özünü Mərkəzi Asiyanın gələcəyinə yerləşdirmək üçün fürsət axtarır. Bu məqsədlərə Xəzər dənizində inkişaf etməkdə olan infrastruktur dəhlizlərinə, limanlara investisiyalar qoymaqla çatmağa çalışır. Əsasən də Qazaxıstan və Türkmənistanda. BƏƏ-nin Türk Dövlətləri Təşkilatında təmsil olunan Qazaxıstan və Türkmənistana (müşahidəçi qismindədir) diqqət yetirməsi onun maraqlarını Azərbaycana doğru da itələyərək nəhəng geosiyasi məna kəsb edir.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN AZƏRBAYCAN İLƏ ƏMƏKDAŞLIĞINDAKI SİRR

BƏƏ Prezidentinin Azərbaycana səfəri çərçivəsində iki ölkə arasında enerji tərəfdaşlığını gücləndirən sənədlərin imzalanması xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, BƏƏ Azərbaycanın dünya siyasi-iqtisadi səhnəsinə yeni elementlərlə daxil olması imkanlarını gücləndirəcək investisiyaların həcmini genişləndirir. Bu, Azərbaycanın güc mərkəzləri arasındakı manevrlərini genişləndirən "yaşıl enerji" potensialına böyük töhfə kimi başa düşülməlidir. Səfər zamanı enerji sektorunda, xüsusilə elektrik enerjisinin ötürülməsi layihələrində investisiya əməkdaşlığı üzrə çərçivənin yaradılmasını, şəbəkənin inkişafını, texniki bilik və təcrübə mübadiləsini nəzərdə tutan sənədlərin imzalanması belə deməyə əsas verir.

Hər iki ölkə güclərini və potensiallarını eyni ip üzərinə çıxararaq suverenlik prinsiplərini müdafiə edəcək qarşılıqlı mexanizmləri ərsəyə gətirməyi hədəfləyir. Bu, qarşılıqlı milli və regional maraqlara əsaslanan çoxsaylı əlaqələr qura bilmək qabiliyyətlərini inkişaf etdirəcək və qloballaşmanın formatlanmasındakı güclü yerini müəyyənləşdirəcək.

Deməli, Azərbaycanla BƏƏ dünya və regional nizamda ikitərəfli münasibətlərin ağırlıq mərkəzini iqtisadi-energetika sahəsində yaradaraq gələcək strateji niyyətləri formalaşdırırlar.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



TARİXİMİZİN YENİ MƏRHƏLƏSİNİN BAŞLANDIĞININ RƏSMƏN ELAN OLUNDUĞU MÜSAHİBƏ

# İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ



**Modern Azərbaycanın tarixində yeni mərhələyə start verilir: Qarabağ və Şərqi Zəngəzura qayıdış. Bu proses postmüharibə mərhələsinin başlıca trendi olacaq. Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəsinin başlıca tezisi bu idi.**



RÜSTƏM QARAXANLI

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsinin başlıca tezisi müstəqil Azərbaycan tarixinin yeni mərhələsinin rəsmən elanı oldu. Xalqımızın yaşadığı bu günlər modern tariximizdə bir ilkdir: hələ sovet dövründən başlanan erməni işğalı nəticəsində o vaxt mövcud olan Azərbaycan SSR-in, sonra isə 1991-ci ildə müstəqilliyini elan etmiş ölkəmizin bütün əraziləri üzərində təmin edilmiş suverenliyi olmayıb. Ötən ilin sentyabrında həyata keçirilmiş effektiv və nümunəvi antiterror tədbirləri nəticəsində dövlət bütün ərazisi boyu suverenliyini bərqərar edib və bununla da yeni inkişaf mərhələsi - işğal amilinin aradan qaldırılması ilə digər həlli vacib problemlərin çözümünün önü açılıb.

### SENTYABRA QƏDƏR GETDİYİMİZ YOL...

Məhz bu səbəbdən Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, 2023-cü ilin sentyabrını Azərbaycanda yeni mərhələnin başlanğıcı hesab etmək lazımdır: “Sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır”.

### 30 İLDƏN SONRA YEKUN SÜLH

Əlbəttə, müharibə bitdikdən sonra Ermənistanla dayanıqlı sülhün əldə edilməsi xarici siyasətimizin prioritet hədəflərindən biridir. Ancaq burada öncəki illərlə müqayisədə ciddi fərq var: əraziləri işğal altında olan Azərbaycan 30 il ərzində bu tarixi ədalətsizliyin aradan qalxmasını gözləyib. Bu müddət ərzində sülh danışıqları sülh prosesinin sadəcə imitasiyası olub. Həmin illərdə bizə sülh çox vacib idi - şəhər və kəndlərimizi geri almaq, əhalimizi yaşayış yerlərinə qaytarmaq üçün. Ermənistan və onu dəstəkləyən qüvvələr bu tarixi şansdan yararlana bilmədilər: “Əfsuslar olsun ki, beynəlxalq aləmin əsas oyunçuları bizim bu fikrimizə şərik olmadılar. Əksinə, bizi ittiham etməyə çalışdılar, bizə qarşı müxtəlif təzyiq mexanizmlərini işə salmağa çalışdılar. Yəni, biz bu ədaləti, eyni zamanda, beynəlxalq müstəvidə siyasi və diplomatik savaş apararaq əldə etmişik. Ona görə bizim Zəfərimizin əhəmiyyəti daha önəmlidir”.



İndi Azərbaycan bu vəzifəni öz gücü ilə gerçəkliyə çevirdi: ərazilərini qaytardı, sərhədlərini bərpa etdi, əhalisinin geri qayıdışı üçün ümummilli səviyyədə quruculuq işləri həyata keçirir və ən əsası, bunu öz gücü ilə edir, heç kimdən asılı olmayaraq. Ermənistan isə həm işğal etdiyi ərazilərdən olub, həm də 30 il ərzində yaşadığı problemləri, əsasən də iqtisadi çətinliklərini həll edə bilməyib. Azərbaycanla sülh olmadan həll edə də bilməyəcək: “Ermənistan yenə dalan olaraq qalacaq. Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq...”

## SÜLH SAZİŞİ AYRI, SƏRHƏDLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ AYRI

Dövlət başçısı müsahibəsində Ermənistanla sülh müqaviləsi kontekstində yeni dövrün reallıqlarını əks etdirən daha bir tezis səsləndirdi: Ermənistanla sülh müqaviləsi və sərhədlərin müəyyənləşdirilməsi ayrı-ayrılıqda baxılacaq və çözüləcək məsələlərdir. Əgər sülh müqaviləsi qısa zaman kəsiyində reallaşacaq məqsəddirsə və bu istiqamətdə işlərin böyük hissəsi görülübsə, sərhədlərin demarkasiya və delimitasiyası kifayət qədər vaxt apara biləcək problemdir.

Ermənistan və onun havadarları bu prosesi ləngitmək istəsələr də, bunun üçün Qarabağın bir hissəsində separatçı fəaliyyətini davam edən xuntaya hər cür dəstək versələr də, təbii ki, istəklərinə nail ola bilmədilər.

Prezident İlham Əlyevdən sitat: “Bir müddət danışıqların aparılması o qədər də böyük ümidlər doğurmurdu. Çünki Ermənistan və onun arxasında dayanan bəzi ölkələr mütləq Qarabağla bağlı mövzunu oraya salmaq istəmişdilər, xüsusilə status məsələsini... Biz isə deyirdik ki, əgər belə olsa, onda vaxtilə Ermənistandan qovulmuş azərbaycanlıların da hüquqları və təhlükəsizliyi eyni ifadələrlə orada təsbit edilməlidir. Hər şey qarşılıqlı olmalıdır və burada onların arqumentasiyası da, çox məntiqsiz idi ki, onlar 30 il bundan əvvəl qovulmuşdu, amma bunlar buradadır. Yəni ki, onlar, bərabər hüquqa malik deyillər. Halbuki bu, faktiki olaraq rasist bir yanaşma idi...”.



## ZƏNGƏZUR DƏHLİZİ OLMADAN SƏRHƏDLƏR AÇILMAYACAQ

Azərbaycanın qarşısında duran yeni inkişaf dövrünün mühüm çağırışlarından biri də kiçik vətənimiz olan Naxçıvanın blokadasına son qoyulmasıdır. Naxçıvanı ana vətənlə ayıran hazırkı Ermənistan ərazisi tarixi Azərbaycan torpağıdır. Bu torpaqlarda tarixən azərbaycanlılar yaşayıb. Bu baxımdan, Azərbaycanın qərb rayonlarından Naxçıvana logistik dəhlizin açılması bizim legitim və təbii tələbimizdir. Üstəlik, Ermənistan bunu üzərinə öhdəlik olaraq götürüb.

Rəsmi İrəvan bu vəzifənin icrasından üç ildir boyun qaçırır. Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı mövqeyi qəti və əsaslandırılmışdır: “Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər. Bu, onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı, digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir”.

Beləliklə, modern Azərbaycanın tarixində yeni mərhələyə start verilir: Qarabağ və Şərqi Zəngəzura qayıdış. Bu proses postmüharibə mərhələsinin başlıca trendi olacaq. Dövlət-xalq tandemi döyüş meydanı və diplomatiya müstəvisində qazandığı Zəfəri bu tarixi mərhələdə də əldə etmək əzmindədir. Bunun üçün tələb olunan potensial yetərincədir: ümummilli həmrəylik, iqtisadi qüdrət, siyasi iradə.

# MİŞELİN GEDİŞİ VƏ BRÜSSEL FORMATI

Şarl Mişelin gedişi ilə Brüssel formatı da tarixə qovuşa bilər. Azərbaycan və Ermənistan arasındakı sülh prosesinin uğurlu nəticələnməsi üçün ikitərəfli danışıqlar formatının əhəmiyyəti getdikcə daha da artır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Avropa Parlamentinə keçiriləcək seçkilərdə iştirak etmək niyyətindədir. O, iyulun ortalarında vəzifəsindən gedəcək. Şarl Mişelin səlahiyyət müddəti 2024-cü ilin noyabrında başa çatır, seçkilər isə bu ilin iyulunda keçiriləcək.

### İTTİFAQ ÖLKƏLƏRİ ÇƏTİN SEÇİM QARŞISINDA

Onun bu addımı Aİ ölkələrini çətin vəziyyətə salıb. Səbəb isə son illərdə müstəqil və ölkəsinin maraqlarına uyğun siyasət yürütməklə ad çıxarmış Macarıstanın Baş naziri Viktor Orbandır. Viktor Orban Aİ Şurasının rəhbəri Şarl Mişel istefa verəcəyi təqdirdə, müvəqqəti olaraq təşkilata rəhbərlik edə bilər. Belə ki, Aİ liderləri Mişelin vəzifəsini doldurmaq üçün tez razılığa gəlməli olacaqlar. Əks təqdirdə, görüşlərə Macarıstanın baş naziri rəhbərlik edəcək, onun ölkəsi iyul ayında Aİ Şurasının rotasiya nümayəndəliyini qəbul edəcək. Adətən Aİ Şurasının rəhbəri bu rolu öz üzərinə götürür.

### İŞİN İÇİNDƏ YENƏ DƏ PARİS VAR

Əslində Aİ daxilində baş verən bu dəyişikliklər Azərbaycanı da yaxından maraqlandırır. Səbəb isə Bakı ilə İrəvan arasındakı sülh danışıqlarında əsas platformalardan sayılan Brüssel formatıdır. Heç kimə sirr deyil ki, bu formatda danışıqların əsas fiquru məhz Şarl Mişel olub. İlkin mərhələdə Azərbaycan Şarl Mişelin sülh səylərinə loyal yanaşıb. Hətta ən ali səviyyədə bu təşəbbüslər təqdirlə qarşılanıb. Lakin proseslərin sonrakı gedişi rəsmi Bakının Brüssel formatına olan inamını sarsıdıb.

Səbəb 2020-ci il müharibəsindən sonra özünün əsl simasını dünyaya nümayiş etdirən Fransanın birtərəfli qaydada Azərbaycanın maraqlarına zərbə vurmaq cəhdləridir. Paris bütün imkanlarından istifadə edərək Brüssel formatının uğursuzluğa düçar olması, daha çox bu prosesin onun nəzarəti altında və Ermənistanın dəstəklənməsi fonunda aparılmasına səylər göstərib. Nəticə isə bəllidir. Brüssel formatı artıq əvvəlki etimadını itirib.



## ŞARL MİŞEL BACARMADI

Bu amil həm də Şarl Mişelin Fransa prezidenti Emmanuel Makronun siyasi təzyiqləri, bəlkə də gələcək siyasi karyerasında ona vəd etdikləri qarşısında əvvəlki bitərəf mövqeyindən geri çəkilməsindən qaynaqlanır.

Aİ Şurasının prezidenti onun sülh təşəbbüslərinin Makron Fransasının təxribatları nəticəsində necə puç olduğuna nəinki reaksiya verib, heç buna ciddi cəhd də göstərməyib. Yalnız Azərbaycanın uğurlu siyasi gedişləri və diplomatik manevrləri Brüssel formatına yeni nəfəs verib. Həmçinin, Aİ-nin digər strukturlarının ölkəmizin "qoca qitə" üçün nə dərəcədə strateji əhəmiyyətə malik olduğunu bağlı qapılar arxasında Şarl Mişelə təkidlə xatırlatması da istisna edilmir.

### AÇIQ QALAN SUALLAR

Əldə edilmiş razılaşmalar fonunda Brüsseldə yeni danışıqlar raundunun keçirilə biləcəyinin anonsları da verilib. İndi isə vəziyyət dəyişib. Formatın əsas təşəbbüskarı öz postunu tərk edir. Avropanın başı qarşıdakı aylar ərzində daxili siyasi müzakirələrə qarışacaq. Bu müzakirələr nəticəsində kimin bu postu tutacağı, Şarl Mişelin xələfinin Bakı ilə İrəvan arasındakı sülh prosesində pozitiv, yoxsa pozucu istiqamətdə mövqe sərgiləyəcəyi açıq qalan suallardandır. Yalnız bölgədəki reallıq onu deməyə əsas verir ki, Aİ-nin daxili siyasi intriqaları fonunda qarşıdakı aylar Azərbaycanla Ermənistan arasında sülh prosesinin uğurla yekunlaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Tərəflərin müsbət bəyanatları sülh sazişinin imzalanması ehtimalını artırıb. Belə bir vəziyyətdə Brüssel formatı yenidən öz əhəmiyyətini itirmiş sayıla bilər.



Emmanuel Makron
Viktor Orban



## BAKINI NARAHAT EDƏN MƏQAMLAR

Lakin rəsmi Bakını bu proseslər fonunda başqa bir məqam da narahat etməkdədir. O da Ermənistanın yenidən sülh prosesindən yayınmaq üçün müxtəlif bəhanələr və təxribatlara əl atması ehtimalıdır. Məlumdur ki, baş nazir Nikol Paşinyanın əsas dayağı həm də Aİ-nin bir sıra qurumları və üzvləri sayılır. Yenidən Paşinyanın ağası sayılan Makronun ortaya çıxmayacağının, Parisdən Aİ-dəki məsələləri həll edənə qədər sülh danışıqlarından yayınmaqla bağlı İrəvana göstərişlər gəlməyəcəyinin zəmanəti yoxdur.

### ORBAN MİŞELİ ƏVƏZLƏYƏRSƏ...

Azərbaycan üçün Macarıstanın Baş naziri Viktor Orban amili də mühüm məqamdır. Sirr deyil ki, Aİ ölkələri içərisində Bakı və Ankaranın əsas strateji tərəfdaşlarından biri, bəlkə də birincisi Macarıstandır. Bu ölkənin Aİ daxilində ölkəmizə qarşı ikili standartlara söykənən qərarların qəbuluna mane olması da Cənubi Qafqazda münaqişənin davamlı olmasını arzulayan Makron Fransası üçün ciddi başağrısına çevrilə bilər. Orbanın Mişelin səlahiyyətlərini ələ alması Brüssel formatının yenidən ədalətli və bitərəf danışıqlar masasına çevriləcəyinə dair Bakının ümidlərini artırsa da, İrəvan və Parisin bu ehtimalı zədələmək üçün əlindən gələni edəcəyi heç kimə sirr deyil. Bütün bu sadalananlar onu deməyə əsas verir ki, Şarl Mişelin gedişi ilə Brüssel formatı da tarixə qovuşmaqdadır. Sülh prosesinin uğurlu nəticələnməsi üçün ikitərəfli danışıqlar formatının əhəmiyyəti isə getdikcə artmaqdadır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

UKRAYNA VƏ YAXIN ŞƏRQ BÖHRANI ÜZV DÖVLƏTLƏRİ QARŞI-QARŞIYA QOYUB

# AVROPA İTTİFAQINDA DAXİLİ ZİDDİYYƏTLƏR ARTIR

450 milyonluq Avropa İttifaqı iyun ayında Avropa Parlamentinə seçkilər keçirəcək. Bu seçkilər Avropanın gələcək xarici siyasətinin müəyyən olunmasında mühüm rol oynayacaq.





AZƏR NURİYEV

Avropa İttifaqı (Aİ) daxilində ziddiyyətlərin, problemlərin bu il də davam edəcəyi əsas proqnozlar və ehtimallar sırasındadır. Hətta qurumun dağılacağı ilə bağlı mülahizələr irəli sürülür.

**UKRAYNA MÜHARİBƏSİ, YAXIN ŞƏRQ BÖHRANI**

Ukrayna müharibəsi, Yaxın Şərqdə yaşanan hadisələrə münasibət qurum daxilində fikir ayrılıqlarını daha da gücləndirib. Bir qisim hesab edir ki, Rusiyaya qarşı sanksiyalar paketi Avropa İttifaqına ciddi maliyyə zərbəsi vurmaqdadır. Bu səbəbdən, sanksiyaları dayandırmağa çağırışlar səsləndirilir. Digər qisim isə Ukraynaya yardımı davam etdirməyin tərəfdarıdır. Eyni proses HƏMAS-İsrail münaqişəsinə münasibətdə də hiss olunur. Avropada İsrailin hərəkətlərini dəstəkləyənlərlə yanaşı, Fələstinə dəstək verilməsini istəyənlər də var.

Miqrant məsələsi, Ukraynanın, Moldovanın, Gürcüstanın Aİ-yə qəbulu ilə bağlı danışıqlar da problemlərə yol açıb. Bir çox siyasilər bunu bütün Avropanın təhlükəsizliyinə təhlükə hesab edirlər. Məsələn, Macarıstanın hakim FİDES – Macar Vətəndaş İttifaqı Partiyasının rəsmisi İştvan Holik deyib ki, müharibə şəraitində olan Ukrayna ilə üzvlük danışıqlarının başlaması qəbuledilməzdir. "Bu, bütün Avropanın təhlükəsizliyinə təhdiddir. Üstəlik, Ukraynanın üzvlüyü Aİ-nin üzərinə onsuz da zəif olan iqtisadiyyatın dözə bilmədiyi maliyyə yükü qoyacaq", - deyə Holik bildirib.

**İNTEQRASİYA TƏRƏFDARLARI UDUZUR**

Ötən ilin günlərində Avropanın müxtəlif ölkələrində keçirilən rəy sorğu-larının nəticələri də maraqlıdır. Belə ki, xeyli avropalı inteqrasiya tərəfdarı olan partiyalara səs verməyib. Nə sosial demokratlar, nə də sağlar Avropada mövcud vəziyyəti qiymətləndirmək iqtidarında olmayıblar. Bir çoxları Aİ-nin genişlənməsi ideyasının reallığı əks etdirmədiyi qənaətindədir. Aİ-nin postsovet məkanına daxil olan ölkələri öz sırasına daxil etməsinə gəldikdə, bunun da sadəcə vəd olaraq qalacağı proqnoz edilir. Bir başqa məsələ də ondadır ki, təşkilatın nüfuzlu üzvləri belə ondan uzaqlaşmağa çalışır. Böyük Britaniyanın ardınca Fransada da qurumdan çıxmaq çağırışları artır. Məsələn, Fransada prezidentliyə namizəd Jan Lyuk Melanşon hesab edir ki, ölkənin gələcəyi Aİ çərçivəsindən kənarda olmalıdır. Hesab edilir ki, Aİ-nin dağılması sürətli olmayacaq, bir neçə il ərzində baş verəcək. Polşa və Macarıstan kimi dövlətlər də Brüsselin qəbirqazanı rolunu oynaya bilərlər.

**BRÜSSEL BALANSI DÜZƏLTMƏYƏ ÇALIŞACAQ**

Bu il ərzində Aİ-dəki üç mühüm vəzifənin - Avropa Komissiyasının prezidenti, Aİ Şurasının sədri və Aİ xarici işlər komissarının vəzifələri bölüşdürüləcək. Bu isə asan məsələ deyil. 2019-cu ildə Şarl Mişel, Ursula von der Leyen və Jozep Borrel üçlüyü müəyyənləşdiriləndə Şərqi Avropanın payına sanballı vəzifə düşməmişdi. Bu dəfə Brüssel bu balansı düzəltməyə çalışacaq.

## VAHİD AVROPA ORDUSU İDEYASI



Digər ziddiyyət yaradan məsələlərdən biri də Avropa ordusu ilə bağlıdır. Məsələn, İtaliyanın xarici işlər naziri Antonio Tayani hesab edir ki, Aİ-nin vahid ordusunun yaradılmasına ehtiyac var. Onun sözlərinə görə, ABŞ, Çin, Hindistan və Rusiya kimi nəhəng oyunçuların olduğu və münaqişələrin kəskinləşdiyi bir vaxtda İtaliya, Almaniya, Fransa və Sloveniya kimi ölkələrin vətəndaşlarını Aİ müdafiə edə bilər. Bunun üçün isə ordu lazımdır.

Almaniyanın müdafiə naziri Boris Pistorius deyib ki, Aİ-nin hərbi potensialını real təhlükə həddinə uyğunlaşdırmaq üçün beş ildən səkkiz ilədək vaxtı var. Onun sözlərinə görə, Rusiya özünün Ukraynaya müdaxiləsini davam etdirə bilmək üçün silah istehsalını artırır, eyni zamanda Baltikyanı ölkələr, Gürcüstan və Moldova üçün təhlükə yaradır.



Antonio Tayani



Boris Pistorius

Belçika ordusunun baş komandanı Mişel Hofman isə bu barədə daha konkret danışıb: "Biz görürük ki, Rusiya hərbi iqtisadiyyat rejiminə keçib. Düşünürəm ki, bizim narahat olmaq üçün əsasımız var. Kremlin dili birmənalı deyil. Onların gələcəkdə ikinci cəbhə aça biləcəkləri istisna olunmur. Bu, ya Moldovada, ya da Baltikyanı ölkələrində ola bilər".

Bu yeni mövzu olmasa da, avropalı rəsmilər və diplomatlar ara-sıra vahid ordu barədə fikirləri söyləyirlər. Ancaq bu mövzu açıqlamalardan o yana keçmir, heç kim Avropada vahid ordu məsələsində geniş müzakirə açmaq istəmir. Aİ vahid ordunu ona görə yaratmağa risk etmir ki, bunun NATO-dan nə ilə fərqlənəcəyi bilinmir. Digər tərəfdən, ətrafda baş verən hadisələrə vahid ordu ilə reaksiya vermək üçün bütün üzv dövlətlərin ortaq qərarını almaq çox çətin olacaq. Məsələn, Fransa vahid ordunun harasa müdaxiləsinə dəstək verəcəyi halda, Macarıstan və ya Çexiya bunun əleyhinə çıxacaq. İndinin özündə Rusiya-Ukrayna müharibəsi ilə bağlı Aİ-də fərqli yanaşmalar var.

Yekun olaraq onu qeyd edək ki, 450 milyonluq Aİ iyun ayında Avropa Parlamentinə seçkilər keçirəcək. Bu seçkilər Avropanın gələcək xarici siyasətinin müəyyən olunmasında mühüm rol oynayacaq. Seçkilərdən sonra Aİ-nin qurumun genişləndirilməsi, miqrantlar və müharibələrə münasibəti bəlli olacaq.

ERMƏNİSTANIN MÖVCUD HAKİMİYYƏTİNDƏN NARAZILIQ PİK HƏDDƏ ÇATIR

# UCUZ POPULİZM, CİDDİ KOMPLEKSLƏR

**Bu gün Ermənistan hökumətinə rəhbərlik edən Nikol Paşinyan natamamlıq kompleksindən ciddi əziyyət çəkir. O, regionlara səfərləri zamanı məmurları alçaldaraq özünü təsdiq etməyə çalışır.**



FUAD ABASOĞLU

Ermənistanın baş naziri Nikol Paşinyan iclaslarda, görüşlərdə qeyri-adekvat davranışları ilə gündəmə gəlməkdən yorulmur. Son ildə getdikcə reytinqi azalan, xalq arasında etimadını itirən baş nazir yeni populizmə əl atmaq qərarına gəlib. Bu hərəkətlər Nikolun ciddi komplekslərinin olmasından xəbər verir. 2024-cü ilə regionlara səfərlə başlayan siyasətçi bir sıra obyektləri gəzib və çoxlu nöqsanlar aşkarlayıb. Nəticə olaraq isə Lori və Armavir qubernatorlarını, Şəhərsalma Komitəsinin sədrini vəzifəsindən azad edib.

Əslində baş nazir anlayır ki, onun şəxsiyyətindən və hakimiyyətindən narazılıq pik həddə çatır. Erməni hökumətinin başçısı artıq dərk edir ki, ona heç kəs inanmır və ünvanına səslənən ittihamları eşitməmək, bununla razılaşmamaq üçün günah keçiləri axtarır. Bu səbəbdən asılqanları qoparır, duşu bəyənmir, işçiləri təhqir edir. Bununla da özünün xalqa canıyanan obrazını yaradır, hər şeydən başı çıxan insan təsiri bağışlamağa çalışır.

### CİDDİ KOMPLEKSLƏRİN SƏBƏBLƏRİ

Davranışları əslində onun ciddi komplekslərinin olmasından xəbər verir. Bunun isə tutarlı səbəbləri var. 12 yaşından ögey ana himayəsində böyüyən Nikol natamam ali təhsili ilə də ad çıxarıb. Məsələ burasındadır ki, 1995-ci ildə universitet rəhbərliyinə qarşı fəaliyyətinə görə İrəvan Dövlət Universitetinin jurnalistika fakultəsindən qovulub. Bütün bunlar, təbii ki, onun psixologiyasına ciddi təsir edib. Natamamlıq kompleksindən əziyyət çəkən keçmiş jurnalist kompensasiya üçün özündən vəzifəcə kiçik insanları əzməklə psixoloji vəziyyətini "stabilləşdirir". Hətta "Haykakan Jamanak" qəzetinin redaktoru olduğu dövrdə də jurnalistlər arasında Nikolun vicdansızlığı, pula olan sevgisi, qeybətə meyilli şəxs olması barədə kifayət qədər neqativ fikirlər dolaşıb.

## PAŞİNYAN ÖZÜNÜ HƏR ŞEYİN "BİLİCİSİ" HESAB EDİR

Regionlara səfəri zamanı Paşinyan özünü bütün peşələrin ən güclü bilicisi kimi təqdim edir: tikinti, təhsil, müxtəlif elm sahələri, mədəniyyət, idman və sair kimi sahələrdə özünün analoqu olmayan obrazını canlandırır. Nə gölməçə, nə asılqan, nə basketbol səbəti, bir sözlə, heç bir detal onun gözündən yayınmır. O, iti gözlə baxır, fərqinə varır, əsəbiləşir, şiddətlə qışqırır. Onu müşayiət edənlər isə boyunlarını büküb qulaq asır, təhqirləri "heyranlıqla" dinləyirlər. Çünki Paşinyana qarşı çıxmaq, həm vəzifə, həm də əmlakla vidalaşmaq mənasına gəlir.

### İKİÜZLÜ SİYASİ FƏALİYYƏT

2008-ci ildən özünü Levon Ter-Petrosyanın bir nömrəli fanatı kimi göstərən Paşinyan Qarabağ ermənilərini təhqir edib, onlara qarşı aqressiv münasibət sərgiləyib. Sonradan isə fikrini dəyişən keçmiş redaktor "Böyük çaşqınlıq" adı altında silsilə məqalələr yazmağa, guya Ter-Petrosyan dəstəsini tərk etdiyini bildirməyə başlayıb. O, bununla da kifayətlənməyib və Qarabağ probleminin həlli məsələsində erməni siyasi elitasında ortaya atılan birtərəfli ərazi güzəştlərinə qarşı çıxışlar etməyə start verib. Əslində isə Nikolun planı sadə idi, gələcəkdə hakimiyyətə gəlmək üçün zəmin yaratmaq, hamını aldatmaq və yalan danışmaq.



### KİÇİKLİK SİNDROMU

Paşinyan hakimiyyətə gəldiyi ilk gündən kiçiklik sindromundan əziyyət çəkdiyini tez-tez büruzə verməyə başlayıb. Məsələn, hakimiyyətinin ilk ilində gömrük əməkdaşını ictimaiyyət qarşısında alçaldıb. Onu bayrağa hörmətsizlikdə ittiham edərək, vəzifəsindən uzaqlaşdırıb və sürücüsünün əmisi oğlunu "Noraqavit" gömrük məntəqəsində yüksək vəzifəyə təyin edib. Başqalarını alçaltmaq bahasına özünü təsdiq etməyin ilk addımı da elə bu dövrdən başlayıb. Sonralar bu iş tərzi xalqı alçaltmaq hesabına məqsədyönlü şəkildə "inkişaf" edib. Regionlara səfərlər zamanı əvvəlcədən hazırlanmış və qonorar qarşılığında aktyorluq edən şəxslər ona yaxınlaşır, yaltaqlanır. Məsələn, səfərlərdən birində yaşlı bir qadın əyilərək onun ayağını öpüb. Digər yaşlı bir qoca isə ona uzun ömür arzulayıb, qucaqlayıb öpmək üçün mühafizəçiləri itələyib.

## KOMANDA YOLDAŞLARINA QARŞI HÖRMƏTSİZLİK

Əslində qeyd etmək yerinə düşər ki, hazırda Paşinyanın heç bir yaxın dostu yoxdur. O, bütün partiyadaşlarına, nazirlərə, icra başçılarına rəiyyəti kimi yanaşır. Vəzifəsindən və yaşından asılı olmayaraq, məmurlar onu görəndə ayağa qalxmalıdırlar. Bütün bunlar Paşinyanın istəkləridir və xüsusi adamları tərəfindən insanlara təlqin edilir.

Baş nazir özünütəsdiq üçün həm də opponentlərini təhqir etməyə, aşağılamağa çalışır. Tabeliyində olan hüquq-mühafizə orqanlarına tapşırır ki, bu şəxslərə qarşı cinayət işləri hazırlansın, ittihamlar irəli sürülsün.

Yuxarıda sadalananlardan məlum olur ki, bu gün Ermənistan hökumətinə rəhbərlik edən şəxs natamamlıq kompleksindən ciddi əziyyət çəkir. Digər insanları alçaldaraq özünü təsdiq etməyə çalışmaq, heç bir dostu olmayan şəxs olmaq baş nazirin psixoloji portretidir. Paşinyan hiylə və təlxəkləri vasitəsilə çatdırır ki, bütün günahlar tabeliyində olan şəxslərdədir. O özü isə güclü rəhbərdir və dövlət qurumlarının rəhbərlərini cəzalandırmağa hazırdır.

PEŞƏKAR Kaspi 13 YANVAR ŞƏNBƏ 2024 9

FİLM ÇƏKMƏKLƏ BAĞLI ARZULARI ÜMİDLƏRİNDƏN DAHA ÇOX OLAN TANINMIŞ KİNOREJİSSORLA MARAQLI SÖHBƏT

# “YALNIZ BƏDİİ FİLM ÇƏKƏNDƏ XOŞBƏXT OLURAM”




**Ayaz Salayev:** “Bədii film çəkmək həyatımın mənasıdır. Qalan şeylər fəaliyyətdir, bəzən məni yoran işlərdir. Bədii film çəkmək imkanımı heç nəyə dəyişmərəm, qalan şeyləri isə dəyişərəm”.

Ayaz Salayevin film çəkməklə bağlı arzuları ümidlərindən daha çoxdur. Durğunluğu özü üçün faciə hesab edir. Kinoda arzularını gerçəkləşdirmək üçünsə onun kimi düşünən, fikirləri üst-üstə düşə biləcək insanlara ehtiyacı var.

Kinorejissor Ayaz Salayev “Kaspi”yə müsahibəsində kinomuzun keçmişini analiz edib, gələcəklə bağlı arzularını dilə gətirib.

SÖHBƏTLƏŞDİ
Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

### KİNEMATOQRAFLAR MƏSULİYYƏTİ HİSS ETSİNLƏR

● **Ayaz Salayev - kinorejissor, ssenarist, pedaqoq... Belə yanaşanda bu peşələrlə ayrı-ayrılıqda məşğul olanlar çoxdur. Siz necə, bu peşələrin hamısını eyni anda və istədiyiniz kimi uğurlu davam etdirə bilirsinizmi? Yoxsa məsələn, rejissorluq və ya pedaqoji iş o birilərini daha üstələyir?**

● Mənim üçün rejissorluq daha öndədir. Ən yüksəyi bədii film çəkməkdir. Bu, həyatımın mənasıdır. Qalan şeylər fəaliyyətdir, bəzən məni yoran işlərdir. Bədii film çəkmək imkanımı heç nəyə dəyişmərəm, qalan şeyləri isə dəyişərəm. Mən film çəkəndə yorulmuram, özümü rahat hiss edirəm. Yalnız bədii film çəkəndə xoşbəxt oluram. Yüz faiz bilirəm ki, müəllimlik həyatımın mənası deyil. Elə tələbələr var ki, məni sevirlər, bunu bilirəm, bununla belə yenə də pedaqoji işi həyatımın mənası kimi görmürəm. Moskvada mənim çox gözəl müəllimlərim vardı. İndi onlar dünyalarını dəyişiblər. Ən çox həsəd etdiyim adamlar onlardır. Bu gün onlarla ünsiyyətdə olmaq, fikirlərimi bölüşmək, dərdləşmək istərdim...



### XANKƏNDİDƏ PARAD İLİ

● **Yola saldığımız ilin kino mənzərəsinə nəzər salaq. Milli Kinomuzun 125 illiyi qeyd olundu. Yubiley ili hansı kino hadisəsi kimi yadınızda qaldı?**

● Yubiley ili mənim yadımda Xankəndidə parad ili kimi qaldı. Bu, ömürlük belə olacaq. Kinoya gəlincə, mən “acınacaqlı”, “bərbad” sözlərini işlətmək istəməzdim, amma başqa sözlər tapa bilmirəm. “Keçmişdə gözəl əsərlər çəkilirdi, indi elə deyil” fikirləri ilə də razı deyiləm. Düşünürəm ki, kinomuz həmişə iki-üç sənət əsərini çıxmaqla Azərbaycan tarixinə və dövlətinə çox borcludur. Demək olar ki, Azərbaycan həyatının kinoda əks olunması sıfır səviyyəsindədir. Baxın, Azərbaycan ziyalısı ekranda öz əksini tapıbmı? Yox! Mən sabun bişirən Cəbiş müəllimi demirəm. Həqiqi ziyalını deyirəm. Azərbaycanın zəhmət, əmək adamının obrazı ekranda həllini tapıbmı? Yox! Kolxoz sədrləri, Bakının brendinə çevrilən kepkalı avaraları görmüşük, amma əsl zəhmət adamı görməmişik! Biz Azərbaycan torpağının gözəlliyini ekranda izləmişikmi? Yox! Bizi heyran edən Azərbaycan qadınının həqiqi gözəlliyini görmüşükmü? Yox! Azərbaycan məhəbbətini, zəngin Azərbaycan nağıllarını, füsunkar təbiətini görmüşükmü? Yox! Azərbaycan tarixini gülməli şəkildə görmüşük. Bu gün Azərbaycan kinosunun çiyninə böyük yük düşür. Çünki biz unikal bir tarixi dövr yaşayırıq. Tarix Azərbaycana rəhbərlik etməyə bizə bir dahi bəxş edib. Biz bu şansdan istifadə etməliyik. Biz tarixi yazmalıyıq. Amma elm və mədəniyyət sahəsi bunu etmir. Ekranı seyr edəndə elə çıxır ki, Azərbaycanın tarixi dövrünü yaşayan adamlar bu ölkədə yaşamır. Elə bil 44 günlük müharibənin sevincini yaşamayıblar, 30 il Xankəndinin və digər torpaqlarımızın həsrətini çəkməyiblər. Ədəbiyyatda da bu cürdür. Bu, paradoksdur. İncəsənətin, mədəniyyətin, kinonun bu cür vəziyyəti həyatımın faciəsidir. Bu gün cılızlaşma bütün dünyada gedir. Son bir neçə ildə mənim fikirlərim və dünyagörüşüm dəyişib. Mən Avropasentrist idim, ruhum dünya mədəniyyətinə uyğun idi. İndi dünya başqa cürdür. Biz öz milli mədəniyyətimizi yarada bilərik. Kino milli mədəniyyətin bir hissəsinə çevrilməlidir. Amma bu, baş vermir. Kinonu “Bayatı-Şiraz” muğamını yaradanlar çəkməlidir. Kinonu Nəsimilər çəkməlidir. Amma nə Qara Qarayevlər var, nə Tahir Salahovlar... Əslində, onlar indi olmalı idilər... Qərb yenə də bizə təsir etməyə çalışır. Bu, böyük problemdir. Dünyanı heyran edən İran və Türkiyə kinosu bizə nümunə ola bilməz. O filmlərə baxsanız, orada ümumi bir cəhət görəcəksiniz: İslam ölkəsi sakininin problemi yalnız maddidir. Bütün qəhrəmanlara çoxlu pul versən, xoşbəxt olacaqlar. Onlar ruh problemləri, daxili aləmləri ilə yaşamırlar. Qərb müəyyən filmlərin festivallara yolunu açmaqla bizim kinematoqrafiyanı istədiyi kimi formalaşdırır. İncəsənət, kino nəinki öz vəzifəsinin öhdəsindən gələ bilmir, hətta bunu dərk etmir. Mən deyəndə ki, “kim kinoya pul qazanmaq üçün gəlir, Mədəniyyət Nazirliyinə yaxın gəlməsin”, prodüserlər düşmən kimi baxırdılar. Çünki məqsəd şöhrət və puldur. İncəsənətə maddiyyatı qatmaq olmaz. Azərbaycan kinosu pul qazana bilməz. Dövlət bu sahəyə pul ayıra bilər, amma bir şərtlə ki, kinematoqraflar məsuliyyət hiss etsinlər. Bu haqda ciddi düşünmək lazımdır.

> *Demək olar ki, Azərbaycan həyatının kinoda əks olunması sıfır səviyyəsindədir. Baxın, Azərbaycan ziyalısı ekranda öz əksini tapıbmı? Yox!*

### “CƏMİYYƏT MÜSTƏNTİQLƏRDƏN, BİZNESMENLƏRDƏN VƏ NARKOMANLARDAN İBARƏT DEYİL”

● **Siz Moskva Kinematoqrafiya İnstitutunun mühitində böyümüsünüz. Bir dəfə “mən burda başqa mühitin adamıyam. Məni başqa mövzular düşündürür” demisiniz. Düşündüklərinizi reallaşdırmaq niyə çətindir?**

● Kino fəaliyyəti yazıçı fəaliyyəti deyil ki, kağızla qələm bəs eləsin. Sən bir çox başqa peşəkar adamlardan asılısan - ssenaristdən tutmuş operatora qədər... Kinonu təklikdə çəkmək mümkün deyil. “Yarasa” filmini möcüzə kimi təklikdə çəkmişəm. Amma bu, yalnız bir dəfə ola bilər. Ssenarist, dramaturq lazımdır, onlar da yoxdur. O filmdən sonra normal bir şey edə bilməmişəm. İndi bir sənədli filmim var. Bir dəfə göstərilib, yenidən nümayişi haqqında düşünürəm. Bədii film çəkmək haqda isə daim düşünürəm, sadəcə, ssenari problemi var. Mənim düşündüyümü düşünən çox azdır. Moskvada birlikdə oxuduğum peşəkar dramaturqla əməkdaşlıq etməyə çalışdım, o da alınmadı. Biz yeni, ağ bir səhifədən başlamalıyıq. Yeni bir yolla getməliyik. Əsl, milli, heç kimə bənzəməyən... Çünki bizim ədəbiyyatımız, kinomuz Rusiyanın içində formalaşıb. Bu haqda düşünən yoxdur. Qarabağ mövzusunda çəkilən filmlərə baxın. Əksəriyyətində meyit, tabut, xəstə, uşaq qorxusu var. Müharibədən elə bil qorxublar. Müharibə haqqında filmlərimizi elə rejissorlar çəkməlidir ki, heç olmasa şeiriyyatımızı əzbər bilirlər, klassik musiqidən zövq alırlar. Dünya mədəniyyətinə qovuşmaq mütləq lazımdır, amma onun yüksək mənasında. Böyük sənətkarlar bir qayda olaraq özlərindən yüksək adamları yaradırlar. Hamlet Şekspirdən üstündür. Mona Liza Leonardo da Vinçidən qat-qat yüksəkdir. Bizimkilər özlərindən balacanı çəkirlər. Çünki ruh yüksəkliyi yoxdur. Kinonun məqsədi Azərbaycan həyatının bədii obrazını yaratmaqdır: insanları, qocaları, təbiəti... Azərbaycan cəmiyyəti müstəntiqlərdən, biznesmenlərdən və narkomanlardan ibarət deyil. Azərbaycan xalqının həyatı restoranlarda keçmir. Kommersiya filmləri ucuz bir şey olmalıdır ki, özü öz xərcini ödəsin. Dövlət vəsaitinin buna dəxli olmamalıdır.

### “MƏNİM DƏ ÜRƏYİMİ İŞĞAL ETMİŞDİLƏR”

● **Siz kinoya sənədli filmlə gəlmisiniz. Bu gün dokumentalistlər ölkəmizdə də çoxdur. Tendensiyaya baxanda bədii kino sənədli kinoya uduzur?**

● Təbii... Biz tarixi anları yaşayırıq. Mən “Yarasa” filmindən sonra bədii filmlər çəkmədim. Sonuncu “Torpaq” sənədli filmini çəkdim. İndi başa düşürəm ki, səbəblərdən biri Qarabağ idi. Ürəyimdə bir tikan vardı, o çıxdı. Mənim də ürəyimi, qəlbimi işğal etmişdilər. Mən elə bil bu mövzudan azad oldum. Artıq tarixi, məhəbbət, daxili aləm haqqında filmlər çəkmək olar. Məni düşündürən azərbaycanlının zəngin daxili aləmidir. Bu heç vaxt ekranda olmayıb.

● **Yeri gəlmişkən, siz özünüz həm də “Yarasa” filminin ssenari müəllifisiniz. Niyə ekranda görmək istədiyiniz ekran əsərləri ilə bağlı ssenarilər yazmırsınız?**

● Mən ssenarist deyiləm. Yaxşı ssenarinin nə demək olduğunu bilirəm, amma özüm onu yazmağı bacarmıram. Dramaturgiya fərqli sənətdir.

### “HEÇ BİR KOMPÜTER, SÜNİ İNTELLEKT KİNOLENTİ ƏVƏZ EDƏ BİLMƏZ”

● **“Rejissor işi təhlükəlidir...” Bu, məşhur “Belarusiya vağzalı” filminin müəllifi Andrey Smirnovun sözləridir. Sizin fikirləriniz necədir?**

● Düzü, mən sevmirəm, rejissorlar elə sözlər desinlər ki, kimlərinsə onlara yazığı gəlsin. Təhlükəlidirsə, getmə... Səndə alınırsa, istedad gəlirsə, bu, böyük xoşbəxtlikdir. Rejissor olmaq yox - film çəkmək... Mən istəyəndə film çəkirəm. Çəkiliş qrupuna da deyirəm ki, biz birlikdə filmə xidmət edirik, mənim “kapriz”lərimə yox....

● **Bir rejissor kimi kino texnologiyasından nə istərdiniz?**

● Heç bir şey... Kino insandır. Onun hissləri, daxili aləmi var. Çox heyf ki, kinolent gedir. Rəqəmsal kino baha başa gəlir və kinolenti əvəz edə bilməz. Təcrübə göstərir ki, kinolenti qoruyub saxlasan qalır, amma bilinmir rəqəmsal gələcəkdə qalacaq, ya itəcək. Heç bir kompüter, süni intellekt onu əvəz edə bilməz. Təsviri sənətdə insansız da əsər ola bilər. Teatr, musiqi insansız ola bilər? Film də insansız ola bilməz.

### “BİZDƏ EVDƏ TELEVİZİYA YOXDUR”

● **Tələbələrinizdə vaxtilə özünüzdə olan entuziazmı müşahidə edirsinizmi?**

● Cürbəcür tələbələr var. Məni vahiməyə salan tələbələrə də rast gəlirəm. Amma artıq bu barədə danışmağa mənəvi haqqım yoxdur. Çünki tələbələrimdən biri şəhid oldu. Biri də ömrümə şərəfli an gətirdi - müharibədən sağ-salamat qayıtdı. “İndi bizdən mobil telefonları yığacaqlar” - deyə, hücumqabağı mənə zəng etdi. Bundan sonra tələbələrim haqqında mənfi heç nə danışmıram. Amma Azərbaycan bölməsində orta təhsillə bağlı iradlarım çoxdur. Ən azı “ingilis” sözünü “Vyetnam” adından ayırmaq lazımdır.

● **Kino səssizdən stereoskopikliyə keçdi. İndi kino zallarında tamaşaçılar çoxalıb. Amma onlar daha çox əllərində popkorn olan, 3G-5G filmlərini seyr edən gənc nəsildir...**

● Popkorn məni narahat etmir, təki kino olsun... Görürsünüz, televiziya ölüb. Bizdə evdə televiziya yoxdur, kompüterlər, notbuklar və planşetlər var. Amma kino və kinoteatr qalıb. Çünki kino tarixi kinokameranın, kinolentin ixtirasından başlamır. Kinonun tarixi kinonun nümayişindən başlayır. Mən də tələbələr üçün universitetdə belə bir şərait yaratmışam: ekran-proyektor. Evdə kinoya baxmıram. Seriallara heç baxmıram. Böyük ekranda, qaranlıq zalda oturub ayrılmadan ekranda baxırsan. Film şeir, simfoniya kimidir. Bunun başqa təsiri var. Təki kinoteatr olsun...



Fotolar: Rüfət Mikayılov/Global Media Group

### “21-Cİ ƏSRDƏ ÇƏKİLƏN ŞEDEVR FİLM GÖRMƏMİŞƏM...”

● **Siz gənclikdəki kimi kinematoqrafiyanın dünyanı dəyişə biləcəyinə inanırsınız?**

● Mən buna heç vaxt inanmırdım. Sadəcə, bəzən filmə baxıb ”belə eləsəm, daha yaxşı olacaq” demişəm, filmlə dünyanın dəyişə biləcəyini düşünməmişəm. Rus ədəbiyyatı və ruslarda olan vəhşilik... Dostoyevski deyirdi ki, mən dünyada heç bir çevrilişə bəraət qazandırmaram ki, onun nəticəsində bir uşağın göz yaşı tökülsün. Alman milləti də Höteni, Motsartı yetirdi...

● **Təsəvvür edək ki, “Retro” verilişini izləmək üçün ekran qarşısındayıq. Tamaşaçılara hansı filmləri tövsiyə edərdiniz?**

● Yalnız öz sevdiyim filmləri deyəcəm: Kurasavanın “Yaşamaq”, Fellininin “Yol”, “Kabiriyanın gecələri”, “Səkkiz yarım”, “Gecə” və “Tutulma”, Berqmanın “Çiyələk tarlası”, “Persona”, Viskontinin “Venesiyada ölüm” filmlərini... Kinoda ən şedevr filmlər çəkilən dövr 1946-1966-cı illər idi. Bu dövrdə şah əsərlər yarandı. 21-ci əsrdə çəkilən şedevr film görməmişəm...

● **Belə bir fikir var ki, rejissorlar ən yaxşı filmlərini 50 yaşdan sonra çəkirlər...**

● Təki belə olsun... Bu sözünüz mənə təsəllidir. Amma təcrübə göstərir ki, bəzən ilk filmlər yaxşı olur, amma həmişə yox. Məsələn, Fellini ömrünün birinci yarısında böyük əsərlər çəkib.



# HƏM XƏSTƏLƏR, HƏM DƏ HƏKİMLƏR GÖZLƏYİRLƏR

Xəstə xəstəxanaya tək müayinə üçün deyil, müalicə olunmaq üçün gedir. İcbari tibbi sığorta müayinələri pulsuz edir. Amma müayinə başlanğıcdır. Nəticə reseptdir, müalicədir. Azərbaycanda da xəstələrin sığorta hesabına dərmanla təminatı başlayır.





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda ambulator müalicə alanların dərmanla təminatına başlanılacaq. Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev bildirib. Agentlik sədri vurğulayıb ki, ambulator müalicədə resept əsasında yazılan bəzi dərman vasitələrinin sığorta hesabına qarşılanması nəzərdə tutulur. Yəni vətəndaşlar pulsuz müayinə ilə yanaşı, dərmanlarını da apteklərdən dövlət hesabına təmin edə biləcəklər. Bəs mexanizm necə olacaq? İlk hansı dərmanların təminatına başlanılacaq?

## HANSI DƏRMANLAR PULSUZ VERİLƏCƏK?

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən "Kaspi" qəzetinə verilən məlumata görə, tibbi sığorta çərçivəsində ambulator müalicədə resept əsasında yazılan ürək-damar, həzm və tənəffüs sistemi xəstəlikləri ilə bağlı dərman vasitələrinin mərhələli şəkildə təminatı nəzərdə tutulub. Proses hazırda layihə şəklində hazırlanıb, razılaşdırılma üçün aidiyyatı qurumlara təqdim edilib. Həmçinin vətəndaşların dərmanlarla təmin edilməsi məqsədilə apteklərlə müqavilələrin bağlanılması, dərman vasitələrinin pozitiv siyahısının hazırlanması nəzərdə tutulub.

Maraqlıdır, dəfələrlə dərman qiymətlərindən şikayətləndiyimiz apteklər bu mexanizmə hazırdırlarmı?

## VACİB DƏRMANLARIN ƏKSƏRİYYƏTİNİ ÖZÜMÜZ İSTEHSAL EDƏCƏYİK

Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının sədri Azər Xudiyev deyir ki, bu xidməti yüksək səviyyədə yerinə yetirmək üçün dövlətin imkanları var: "Artıq o mərhələ çatıb ki, ödənişsiz dərman təchizatını təmin edək. Gələcəkdə böyük çeşid dərman istehsalı planlaşdırılır. Düşünürəm ki, vacib dərmanlar siyahısının 80-90 faizini Azərbaycan özü istehsal edəcək və dövriyyəyə buraxacaq".

Prosesin necə olacağına gəldikdə isə, həmsöhbətimiz düşünür ki, xidməti bütün apteklər verməyəcək: "Dövlət təminatı varsa, özəl və dövlət münasibətləri formalaşırsa, orada hansısa razılaşdırılmış qaydalar olmalıdır. Dövlətin təyin etdiyi xüsusi dərman siyahıları ola bilər və dərmanlar da protokollar əsasında təyin edilə bilər".

## BURADA XƏSTƏYƏ DƏRMAN SİYAHISI TƏQDİM EDİLMİR

Bəs xarici təcrübə necədir? Ambulator müalicə alanlar pulsuz dərmanlardan necə faydalanırlar?

Türkiyədə çalışan ortopediya və travmatologiya mütəxəssisi, uzman həkim İdrak Məmmədov deyir ki, qardaş ölkədə insanlar sığorta vəziyyətinə görə 3 qrupa bölünürlər. Onların böyük qismi dövlət sığortalı, bir qismi özəl sığortalı, digərləri isə sığortasız olur. Amma bu bölgü uşaqlara aid deyil. Türkiyədə bütün uşaqlar dövlət sığortalıdır: "Dövlət sığortalı xəstənin də istər özəl, istər dövlət tibb müəssisəsində xəstəxanaya daxil olma şərti eynidir. Burada uzun illərdir ki, elektron reseptlər yazılır. Reseptdə elektron imza olmasa, keçərli deyil. Üstəlik, xəstəyə bizdəki kimi dərman siyahısı yazılıb təqdim edilmir. Ona ancaq resept barkodu, şifrə təqdim olunur. Bu şifrə sistemdə görünür. Əgər xəstənin telefon nömrəsi də SGK (Sosial Güvənlik Kurumu) tərəfindən təsdiqlənibsə, xəstəyə bununla bağlı mesaj gedir. Xəstə bu şifrə ilə aptekə gedir, şəxsiyyət vəsiqəsi ilə dərmanlarını alır".





İdrak Məmmədov

## DƏRMANIN QİYMƏTİ 200 MANATDIRSA, XƏSTƏ 20 MANAT ÖDƏYİR

Türkiyədə xəstə dərman qiymətinin minimum 10, maksimum 20 faizini ödəyir. Uzman həkimin sözlərinə görə, bəzi dərmanlar da var ki, onlar tam ödənişsizdir: "Reseptin özəl və ya dövlət xəstəxanasında yazılmasının fərqi yoxdur. Məsələn, xəstənin bütün dərmanlarının qiyməti 200 manatdırsa, vətəndaş bunun üçün minimum 10, maksimum 20 manat ödəyir. Digər 180 manatı sığorta tərəfindən qarşılanır. Amma sığortanın tam qarşılamadığı dərmanlar da var. SGK-nın siyahısında olmayan çox az qrup dərmanlar var ki, onların pulu dövlət tərəfindən ödənilmir. Bununla yanaşı, xəstənin tam ödənişsiz aldığı dərmanlar da var. Hansı ki, xəstə bu dərmanı qəbul etməyə məcburdur. Məsələn, şəkərli diabet, ömür boyu təzyiqlə mübarizə aparan xəstələrin dərmanları pulsuzdur. Bu xəstələr üçün xüsusi hesabat hazırlanır, qeyd olunur ki, xəstə bu dərmandan üç yaxud beş il istifadə etməlidir. Bu, sistemdə aktiv olur və xəstə istənilən vaxt, tam pulsuz yararlanır. Elektron reseptlərin qüvvədə qalma müddəti isə üç gündür".

## MÜAYİNƏ BAŞLANĞICDIR, NƏTİCƏ İSƏ...

Bu layihənin xəstələr üçün əhəmiyyətinə gəldikdə isə, həkim vurğulayır ki, nəinki xəstələr, bu, həkimlər üçün də olduqca əhəmiyyətlidir: "Xəstə xəstəxanaya tək müayinə üçün deyil, müalicə olunmaq üçün gedir. İcbari tibbi sığorta müayinələri pulsuz edir. Amma müayinə başlanğıcdır. Nəticə reseptdir, müalicədir. O baxımdan müalicənin də pulsuz olması həm xəstə, həm də həkimlər üçün önəmlidir".

## RESEPTLƏR APTEKDƏ TOPLANIR, SIĞORTA ŞİRKƏTİNƏ GÖNDƏRİLİR

Almaniyada həkim kimi fəaliyyət göstərən Etibar Rzalı deyir ki, Almaniyada həkimin yazdığı resept xəstəyə verilmir. Bununla da sui-istifadə hallarının qarşısı alınır: "Burada yalnız resept yazmaq hüququ olan həkimin yazdığı reseptlə dərmanları almaq mümkündür. Sistem həkimlər tərəfindən yazılan birdəfəlik reseptlərlə idarə olunur. Reseptlər aptekdə toplanır, sığorta şirkətinə göndərilir. Təbii ki, Almaniyada da bütün dərmanlar siyahıda yoxdur".



Etibar Rzalı

## HƏKİMLƏR APTEKDƏKİ "STOK"LARI GÖRƏ BİLİRLƏR?

Azərbaycan Əczaçı Sahibkarlar Assosiasiyasının sədri Azər Xudiyev Norveç və Danimarka təcrübəsini bizimlə bölüşür. Mütəxəssis bildirir ki, həkimlər dərman təyin etdikdə brendin adına görə deyil, tərkibinə əsaslanan dərmanları təyin edirlər. Xəstə yaşadığı yerə uyğun aptekdən dərmanlarını ala bilir: "Skandinaviya ölkələrində hər bir xəstəni təyinatı üzrə aptekə yönəldirlər. Çünki aptekdə həmin çeşidin olması önəmlidir. Xəstə məmnuniyyəti təmin edilməlidir. Həkimlər aptekdəki stoklara görə bilir, ona uyğun seçim edə bilirlər".

Azərbaycanda bu layihənin necə aparılacağı hələ müzakirə mərhələsindədir. İcbari Tibbi Sığorta Agentliyindən bildirilib ki, layihə təsdiq olunduqdan sonra ictimaiyyətə bu barədə ətraflı məlumat veriləcək.

# İSTANBUL HƏR ADDIMDA TƏƏCCÜBLƏNDİRİR



Şəhərin mərkəzi küçələrində əliboş adam görmək çətindir. Geri dönüşdə təyyarə salonunda əl baqajı yeri üçün mübahisə edən bizimkilər üçünsə İstanbul alış-verişdən ötrü ideal yerdir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakıdan İstanbula uçan təyyarə tam doludur. Salonda özünə nisbətən erkən yer edən sərnişinlər "deyəsən Azərbaycanda adam qalmayıb", - deyə bir-birlərinə gülümsəyirlər. "Görəsən İstanbulda Yeni il necə qarşılanır?" sualı ilə hər kəs təqvim ilinin dəyişməsini bu meqapolisdə qeyd etməyə tələsir...

Türkiyədə 2024-cü il üçün Yeni il marşrutu seçilən İstanbulu insanlar təsadüfən seçməyiblər. Əvvəla, tətil günlərində iki qitəyə - Avropa və Asiyaya səyahət etmiş olurlar. İstanbulun "Travel + Leisure" jurnalının "2024-cü ildə səyahət etmək üçün ən yaxşı 50 yer" siyahısında yer alması da bu istəyi xeyli gücləndirib. Şəhərin köklü tarixi, memarlıq inciləri, zəngin qastronomiyası, mədəniyyəti, heyrətamiz Bosfor boğazı, tarixi məhəllələr və əlverişli alış-veriş təklifləri turistlərə rəngarəng təcrübələr vəd edir.

İstanbul dünyanın digər şəhərləri kimi deyil, hər addımda təəccübləndirir. Müxtəlif dövrlərin üst-üstə düşməsi, üslubların qarışığı, nağıllarla reallığın vəhdəti bu şəhəri ilin istənilən vaxtında cəlbedici edir.

### YENİ İL MARŞRUTU KİMİ

İstanbul Yeni il marşrutu seçilsə də, burada təqvim ilinin dəyişməsi Avropa ölkələrindəki və ya Rusiyadakı kimi təntənəli qeyd olunmur. Düzdür, ötən illərlə müqayisədə bəzi mərkəzi yerlərdə qurulan "yolka"ların sayı çoxalıb, mağazaların vitrinlərində, restoranlarda və s. məkanlarda Yeni il atributlarından ibarət dekorlara rast gəlinir. Restoran terraslarından canlı musiqilərin səsi yayılır. Amma şəhərdəki çoxluq daha çox ənənəvi turizm izdihamıdır. İnsanlar Boğaziçi üzərində bayram atəşfəşanlığını səbirsizliklə gözləyirlər.

Taksim meydanına, İstiqlal caddesinə və digər tarixi məkanlara daxil olmaq üçün uzun növbələr gözləyən turistləri görüncə, rəsmilərin "Türkiyəni tətil istiqaməti seçən xarici turistlərin sayı ildən-ilə çoxalır" açıqlamalarının real təsdiqinin şahidi oluruq.

Əcnəbi turistlər UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmiş tarixi Ayasofya, Sultan Ahmet Camisi, Yerebatan Sarnıcı, Topqapı Sarayı kimi məşhur məkanlarda çoxluq təşkil edirlər. Hər bir səyahətçinin görmək istədiyi bu memarlıq əsərlərinə baş çəkmək üçün uzun-uzadı növbələr gözləməlisən. Turistlər arasında ruslar, yunanlar, çinlilər və italyanlar çoxluq təşkil edir.

## KULİNARİYADAN HƏZZ ALAN İNSANLAR

İstanbulun qədim məhəllələrində, dar küçələrində gəzmək unudulmaz hisslər yaşadır. Küçə yeməklərini dadmaqla kulinariya çeşidlərindən həzz alan insanlara biz də qoşuluruq. Vazkeçilməz küçə ləzzətləri - simit, dönər, kokoreç, midye dolması, səyyar arabalarda satılan qovurulmuş və qızardılmış şabalıd turistləri xüsusilə cəlb edir. Karaköy və Eminönü kimi dənizkənarı məhəllələrdə "balık-ekmek" yemək səyahəti daha da ləzzətli edir. Qiymətlər ötən illə müqayisədə xeyli bahalaşıb. Əgər turistlər əvvəllər yüngülvarı bir axşam yeməyi üçün 150-200 tl (9-12 AZN) ödəyirdilərsə, indi ən azı 300-350 tl (17-20 AZN) xərcləməli olurlar. Hotel rezervasiyalarında da qiymətlər bahalaşıb.

### "HƏM ZİYARƏT, HƏM TİCARƏT"

Muzeylərə biletlərin qiymətləri də keçən illə müqayisədə artıb. Məsələn, Dolmabahçe Sarayına türk vətəndaşları üçün giriş bileti 150, əcnəbi vətəndaşlar üçün 1050 tl (61 AZN) olub.

İstanbula səyahət edənlər meqapolisin tarixi bazarlarında, dükanlarla dolu küçələrində, müasir ticarət mərkəzləri və lüks butiklərində alış-veriş etməyi də xoşlayırlar. Şəhərin mərkəzi küçələrində əliboş adam görmək çətindir. Geri dönüşdə təyyarə salonunda əl baqajı yeri üçün mübahisə edən bizimkilər üçünsə İstanbul alış-verişdən ötrü ideal yerdir. Məşhur filmdəki kimi - "həm ziyarət, həm ticarət" yeri...











## İSTANBULUN KEÇMİŞİNƏ "FÜSUNKAR PƏNCƏRƏ"

Qatarla İstanbuldan çox da uzaq olmayan Fatih rayonunun Haliç üzərindəki tarixi məhəllələlərinə - Balat və Fənərə baş çəkmək də məsləhətdir. Bu məhəllələr son dönəmlərdə turistləri xüsusilə cəlb etməyə başlayıb. Burada şəhərin canlı tarixini öz gözlərinizlə görməyiniz mümkündür.

Balat və Fənər - ən qədim İstanbul sayılır, Konstantinopolun keçmişinə "füsunkar pəncərə" də deyirlər. Bu məkanlar hələ Bizans dövründə İstanbulun önəmli bölgəsi olub. Hər ikisi şəhərin tarixini və mədəni müxtəlifliyini nümayiş etdirən unikal məhəllələrdir. Balat nərdivanları bu tarixi məhəlləni Fənər rayonu ilə birləşdirir. Balat və Fənərin rəngli evləri, tarixi tikililəri, dar küçələri, kiçik və orijinal kafeləri, kilsə və sinaqoqları bölgəni turistik məkan kimi məşhurlaşdırıb. Məhəllələrdəki dini mərkəzlər təkcə ibadət yeri deyil, bölgənin tarixi mədəni sərvətləridir. Bu mərkəzlərə gündəlik turlar təşkil olunur. Məhəllələrin önəmi həm də vaxtilə bu ərazilərdə müsəlman, xristian və yəhudilərin birgə yaşaması, multikultural ənənələridir.

Balatda qədim əşyalar satılan antik dükanlar turistləri cəlb edir. Onlar tez-tez keçirilən auksion və hərraclara qatılırlar. "Bura tipik alış-veriş bölgəsi deyil. Turistlər yalnız auksionda qədim əşyalar, keramika və ikinci əl kitablar ala bilərlər", - deyə oturduğumuz kafenin sahibi məhəllələr haqqında məlumat verir: "İstanbullular üçün Balat və Fənər xüsusilə həftə sonları səhər yeməyi üçün məşhur məkanlardır".

### SƏYAHƏTİ UNUDULMAZ EDƏN ANLAR

Qış olmasına baxmayaraq, bayram günlərində İstanbulda havanın mülayimliyi və günəşli olması yeni tarixi məkanlara, qədim məhəllələrə səyahət etməyə imkan yaradır. Turistlər bərə və ya qayıq turunda İstanbulun Anadolu Kavağı və ya Bebek kimi mənzərəli bölgələrini gəzməklə tətillərini daha rəngarəng edirlər.

Beşiktaş rayonundan bir saatlıq məsafədə yerləşən Sarıyer, zənginlərin yaşadığı Bebek, ən məşhur turistik yerlərdən biri olan Karaköy rayonuna gəzintilər isə səyahəti daha da unudulmaz edir.



# GƏLİRİ AZ, ƏZİYYƏTİ ÇOX





**6 ay** — TÜTÜNÜN BECƏRMƏ, YIĞIM İŞLƏRİ

**300-700 manat** — BİR HEKTARDAN GÖTÜRÜLƏN MƏNFƏƏT

**3000 manat** — BİR HEKTARDA ƏKİLƏN MƏHSULA ÇƏKİLƏN XƏRC

**10-15 ton** — BİR HEKTARDAN YIĞILAN TÜTÜNÜN HƏCMİ

**15-32 qəp** — TÜTÜNÜN NÖVLƏRİNDƏN ASILI OLARAQ SATIŞ QİYMƏTİ (kq)

Azərbaycanda tütün yarpağı yığımında azalma müşahidə edilir. Ekspertlər bildirirlər ki, bunun səbəbi məhsula verilən dəyərin az, zəhmətinin isə çox olmasıdır. Onların fikrincə, ölkədə tütünçülüyün inkişafı üçün kompleks tədbirlərin görülməsinə ehtiyac var.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Keçən ilin yanvar-avqust aylarında Azərbaycanda 2744.6 hektar sahədən 2092.4 ton tütün yarpağı yığılıb. Dövlət Statistika Komitəsinin apardığı hesablamalara görə, bu, 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 21.5 faiz və ya 572.4 ton azdır. Belə ki, həmin dövrdə sahələrdən 2664.8 ton tütün yarpağı yığılıb. Bu geriləmənin səbəbi nədir?

### "PULUMUZU VAXTINDA ALA BİLMİRİK"

Tütünçülüklə məşğul olan Məmmədiyyə bəy deyir ki, fermerin bu sahədəki ən böyük problemi pul ilə bağlıdır: "Biz yapon şirkəti ilə işləyirik. Pul az verirlər, qiymət də aşağıdır. Müqavilədə göstərilən kimi ödənişi vaxtı-vaxtında vermirlər. Bugünkü gündə də pulumuz gecikir. Gecikdikcə, məhsuldarlıqda da azalma olur. İşçiyə ödəniş edilmir, məhsul məhv olub gedir".

### KADR ÇATIŞMAZLIĞI

Tütün İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Rövşən Şərifov bildirir ki, hazırda dövlət tərəfindən tütünçülük sahəsi dəstəklənir: "1990-cı illərə qədər 60 min ton quru tütün istehsal edilirdi. Amma 2000-ci ildən bəri 2 min tondan artıq tütün istehsal edə bilmirik. Halbuki həmin dövrdə nə texnika, nə dövlətin qayğısı yox idi. Bu gün alınan texnikanın, torpağa verilən gübrələrin dəyərinin 40 faizi dövlət tərəfindən ödənilir. Sovet dövründə bunların heç biri yox idi".

**1990-cı illərə qədər istehsal edilən quru tütün 60 min ton**

**2000-ci ildən bəri istehsal edilən quru tütün 2 min ton**

R.Şərifovun sözlərinə görə, yaxşı mütəxəssislər olmadığı üçün torpaq gücdən düşür, bu da məhsuldarlığa təsir edir: "Torpağa düzgün aqrotexniki yanaşma yoxdur. Sovet dönəmində hər bir kolxozda alim, kənd təsərrüfatı mütəxəssisi var idi. İndi torpağı paylamışıq, fermer həm torpaqşünas, həm bitkiçilik alimi, həm zərərvericilərə qarşı mübarizə aparandır. Nəticədə torpaq gücdən düşür, məhsuldarlıq da azalır".



Rövşən Şərifov

## TOXUMU XARİCDƏN ALIRIQ

Müsahibimizin fikrincə, fermerlər bu sahəyə o qədər də maraqlı deyillər: "Biz zamanında toxum istehsal etmişik. İndi toxumu xarici şirkətlərdən alırıq. Bu sahədə sistemlilik yoxdur. Əslində, gələn toxum rayonlaşdırılmalıdır. Hər rayonun ərazisinin torpaqları fərqlidir, deməli, toxumlar da fərqli olmalıdır. Amma bunu edə bilmirik. Nəticədə bu da məhsuldarlığa təsir edir".

R.Şərifov deyir ki, fermer taxıl əksə daha az əziyyət çəkər, nəinki tütün: "Eyni torpaqda fermer taxıl da, qarğıdalı da, yonca da əkə bilər. Fermer təbii olaraq gəlirini fikirləşir ki, tütünçülüklə məşğul olsa, qazancı nə olacaq. Bu gün tütünçülərə yaş tütünün hər kiloqramına görə növlərindən asılı olaraq verilən məbləğ 15-32 qəpikdir. Fermer bir hektarda 10-15 ton tütün istehsal edə bilir. Orta hesabla məhsulun dəyəri 3000 manat edir. Tütünün yetişdirilməsi, becərilməsi, əkilməsi xərclərini çıxanda fermer görür ki, bir hektardan 300 – 700 manat mənfəət qalır. Əldə etdiyi gəliri digər sahələrlə müqayisə edir. Görür ki, digər məhsulları da əksə, bu pulu qazanacaq, amma daha az əziyyət çəkəcək. Tütündə 6 ay becərmə, yığım işləri gedir. Ona görə stimullaşdırma olmalıdır".

## KEYFİYYƏTLİ TÜTÜN İSTEHSAL EDƏ BİLMİRİK

Ekspert bildirir ki, tütünün fermerdən alış qiymətini formalaşdıran bəzi səbəblər mövcuddur: "Bizdə tütünü xaricə ən yaxşı halda iki dollar, iki dollar yarıma satırlar. Bu səbəbdən fermerdən 32 qəpikdən baha qiymətə ala bilmirlər. Amma dünya bazarında tütünün Virciniya sortunun qiyməti kiloqramına görə 10 dollara qədər qalxır. Bu gün biz yüksək keyfiyyətli tütün istehsal edə bilmirik. Bunun üçün ilk növbədə toxumçuluqdan başlayaraq tütünün əkilməsi, becərilməsi, yığılması, emalı prosesində standartlar hazırlanmalıdır. Dünyanın ən yüksək standartlarına cavab verməlidir. O halda tütünü 5-7 dollara satacağıq. Fermerdən tütünü 50-60 qəpiyə alanda, o, məmnuniyyətlə tütün əkməyə meyli olacaq".



### TÜTÜNÜMÜZÜ HANSI ÖLKƏLƏR ALIR?

R.Şərifovun sözlərinə görə, standartları dövlət hansısa quruma sifariş verməlidir: "Bu standartlarla toxum istehsal etməliyik. Azərbaycanın ərazisi, torpağı, təbiəti nəzərə alınaraq toxumlar yetişdirilməli, rayonlaşdırılmalıdır. Bu da uzun prosesdir. Kənd Təsərrüfatı Nazirliyi çalışır, vaxtaşırı görüşlər, müzakirələr, tədqiqatlar keçirilir. Amma bir nazirlik yox, digər dövlət qurumları ilə birlikdə bu işə diqqətlə yanaşılmalıdır".

Müsahibimiz qeyd edir ki, bizdə tütünçülük sahəsində zavodlar var, lakin yalnız xarici xammalı qablaşdırmaqla məşğuldur: "Tütünçülük çox gəlirli sahədir. Dediklərimizi etsək, 100 milyonlarla dollar gəlir götürərik. Siqaretin tərkibindəki tütün bir neçə növdən ibarətdir. Xarici şirkət heç vaxt icazə verməz ki, özbaşına siqaretin tərkibinə keyfiyyətsiz tütün vurulsun. Xaricdə müəyyən edilir ki, hansı tütündən istifadə olunmalıdır. Hazır şəkildə bizim müəssisələrə göndərilir. Biz ancaq qablaşdırırıq. Bizim tütünü ancaq Rusiya, Belarus, Ukrayna müəssisələri alırlar. Onu da yəqin ki, daxili bazara hesablanmış aşağı keyfiyyətli siqaretlərdə istifadə edirlər. Bu gün Avropa ölkələri tütün əkməkdən imtina edirlər. Yəni, bazar boşalır. Bu boşluğu tuta bilərik. 60 min tondan çox tütün istehsal edib, dünya bazarına da daxil ola bilərik".

# ŞOKOLAD SEVƏNLƏR ÜÇÜN BƏD XƏBƏR




Ölkəmizdə şokolad məhsulları ilə bağlı daxili istehsal kifayət qədərdir və tələbi ödəyir. Amma onların xammalı xarici ölkələrdən gətirilir. Dünyada qəhvə və kakaonun qiymətinin yüksəlməsi prosesi davam edərsə, 2024-cü ildə daxili bazarımızda da şokolad məhsullarında qiymət artımının şahidi olacağıq.



İLHAMƏ ƏBÜLFƏT

Hazırda dünya bazarında qiyməti artmaqda davam edən məhsullardan biri də şokoladdır. Belə ki, şokoladın əsas vətəni hesab edilən və xammalın istehsal edildiyi Fil Dişi Sahili Respublikası və Qanada kakao məhsullarının qıtlığı yaranıb. Buna səbəb kimi iqlim dəyişikliyi əsas gətirilir.

**KAKAO QITLIĞI, 20 FAİZ ARTIM...**

Elə Amerika Birləşmiş Ştatlarında da quraqlıq səbəbi ilə şəkər qıtlığı yaranıb ki, bunun da nəticəsində son 12 ayda qənnadı məmulatların qiyməti 13,4% artıb. Dünyanın ən böyük şokolad və kakao məhsulları istehsalçıları 2024-cü ildən qiymətlərin artacağını bildiriblər.



Qeyd edilir ki, kakaonun qlobal qıtlığı fonunda qiymətinin rekord həddə artması nəticəsində 2024-cü ildə şokoladın qiyməti 15-20% arta bilər. Bəs şokoladla bağlı dünyadakı qıtlıq Azərbaycanda qiymətlərə necə təsir edəcək?

## ŞOKOLADLARIN QİYMƏTİNDƏ NƏ QƏDƏR ARTIM OLACAQ?

İqtisadçı-ekspert Eyyub Kərimlinin sözlərinə görə, dünyada kakao və qəhvə dənələri ilə bağlı qiymət artımı şokoladın da qiymətinə təsir göstərə bilər: "Bizim bu məhsulla bağlı daxili istehsalımız olmasına baxmayaraq, xarici ölkələrdən də idxal edirik. Nəticədə bu, ölkəmizdə satılan şokoladların qiymətində müəyyən artıma səbəb olacaq".

Ekspert deyir ki, ölkəmizdə şokoladla bağlı daxili istehsal kifayət qədərdir və tələbi ödəyir: "Amma onların xammalı xarici ölkədən gətirilir. Bu artım davam etsə, 2024-cü ildə ölkə bazarında şokoladın bahalaşmasına təsir edə bilər".


Eyyub Kərimli

Qeyd edək ki, Azərbaycan şokolad istehsalının dəyər zəncirində iştirak edir. Məsələn, fındıq istehsalçılarımızın məhsullarının satış bazarlarının əsasını elə şokolad alıcıları təşkil edir. Ölkəmiz dünyada fındıq istehsalında beşinci yerdədir.

## İDXAL MƏHSULLARININ QİYMƏTİ SATAN ÖLKƏDƏN ASILIDIR

Milli Məclisin deputatı Aydın Hüseynovun sözlərinə görə, Azərbaycana idxal olunan bütün məhsulların qiyməti satan ölkədən asılıdır: "Yəni Azərbaycana idxal olunan məhsulların, həmçinin, şokoladın dəyəri, qiyməti satan ölkənin təklif etdiyi məbləğdən asılıdır. Onlar hansı qiymətə satacaqsa, bizim ölkədə də müəyyən rüsumlar, maya dəyərinə təsir edən xərclər üstünə gələcək və bazarda həmin qiymət formalaşacaq". Yəni millət vəkili hesab edir ki, xaricdə bahalaşma olacağı təqdirdə bu, Azərbaycanda da hiss olunacaq.

**VYETNAM VƏ TAİLANDDAN DA ŞOKOLAD ALIRIQ**

Dövlət Statistika Komitəsinin məlumatına görə, keçən ilin yanvar-sentyabr aylarında Azərbaycan 74,3 milyon ABŞ dolları dəyərində 20 min 776 ton şokolad idxal edib. Bu, 2022-ci ilin eyni dövrünün göstəricisindən dəyər ifadəsində 18,2%, kəmiyyət olaraq 10% çoxdur.

Hesabat dövründə Azərbaycan Rusiyadan 31,7 milyon ABŞ dolları dəyərində (bir il əvvəlki göstəricidən 10% azdır) 11 min 374 ton (-5%), Türkiyədən 10,9 milyon ABŞ dolları dəyərində (+18%) iki min 192 ton (+4%), Ukraynadan yeddi milyon ABŞ dolları dəyərində (-49%) iki min 276 ton (-55%), Polşadan 6,5 milyon ABŞ dolları dəyərində (+4 dəfə) min ton (+4 dəfə), Niderlanddan dörd milyon ABŞ dolları dəyərində (+2,4 dəfə) 779 ton (+2 dəfə) şokolad alıb.

Azərbaycan 4 il 8 ayın tamamında Tailanddan (0,35 min ABŞ dolları dəyərində 0,02 ton) və 4 il 3 aylıq aradan sonra Vyetnamdan (0,1 min ABŞ dolları dəyərində 0,01 ton) tədarükü bərpa edib. 2022-ci ildə Azərbaycana (44 ölkədən) idxal edilmiş 27 min 518 ton şokoladın 61%-i Rusiyanın, 12%-i Türkiyənin, 8,4%-i Ukraynanın payına düşüb. Xatırladaq ki, 2022-ci il ərzində ölkəyə 95 248,1 min ABŞ dolları dəyərində 27 251,4 ton şokolad və şokolad məhsulları idxal edilib.


Aydın Hüseynov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Laləə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 84
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

MÖVCUD DURUM ARTIQ DÖVLƏT QURUMLARINI HƏRƏKƏTƏ GƏTİRİB

# HAVAMIZI ÇİRKLƏNDİRƏN KÖHNƏ MAŞINLAR

Hazırda istismar müddəti bitmiş köhnə nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı müvafiq tədbirlər görülür. Fevral ayından artıq bu sistem işə başlayacaq. Ödəmələr olunması üçün fond yaradılır. Sentyabr ayından köhnəlmiş nəqliyyat vasitələri müvafiq özəl şirkətlərdən təşkil olunacaq utilizatorlara təhvil veriləcək.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illərdə paytaxt Bakı başda olmaqla, böyük şəhərlərimizdə havanın həddindən çox çirkli olması barədə narahatlıq mövcuddur. Bu məsələdə ən böyük pay sahibi istismar müddətini başa vurmuş nəqliyyat vasitələridir. Mövcud durum artıq müvafiq qurumları da hərəkətə gətirib. Bəs sözügedən sahədə daha hansı işlərin görülməsinə ehtiyac var?

### AVTOMOBİLLƏRİ SIRADAN ÇIXARAN SƏBƏBLƏR

Ekoloq Kənan Kərimli dedi ki, nəqliyyat vasitələrinin sayı hər gün artır, xüsusən daxili yanma mühərrikləri ilə işləyən avtonəqliyyat vasitələri atmosferi çirkləndirən başlıca mənbə olaraq qalırlar: "Avtomobillərin əksəriyyəti fiziki və texniki cəhətdən aşınmış, ekoloji göstəricilərinə görə istismara yararsız vəziyyətdədir. Əlverişsiz yol şəraiti, yanacaq-sürtgü materiallarının keyfiyyətinin aşağı olması avtonəqliyyat vasitələrinin texniki hissələrinin və aqreqatlarının sürətlə yeyilməsinə, yanacaq sərfinin və xaric olan qazların zəhərliliyinin artmasına səbəb olur. Texniki qulluq və təmirin keyfiyyətinin yüksək səviyyədə olmaması, müasir avadanlıqların və ixtisaslı mütəxəssislərin çatışmazlığı avtonəqliyyat vasitələrinin iş qabiliyyətinin tam bərpa edilməsinə mənfi təsir göstərir. Avtonəqliyyat vasitələrinin ekoloji parametrlərini normada saxlamaq üçün onların texniki vəziyyətinə diaqnostika stendləri və avadanlıqlarından istifadə olunmaqla dövri nəzarət zəruridir".




Kənan Kərimli
Foto: Tapdıq Abdullayev-Global Media Group

### BU AVTOMOBİLLƏRƏ KEÇİD TƏK ÇARƏDİR

K.Kərimlinin fikrincə, hibrid və elektromobillərə keçid tək çarədir: "Yararsız və ya istismar müddətini başa vurmuş avtomobillərin dövriyyədən çıxarılması ekoloji durumun yaxşılaşmasında rol oynamaqla yanaşı, həm də yol-nəqliyyat hadisələrinə səbəb olan halların azalmasına da təsir göstərəcək".



## BU SAHƏDƏ MÜVAFİQ ADDIMLAR ATILACAQ

Ekoloqun sözlərinə görə, nisbətən ekoloji təmiz hesab olunan hibrid, tam elektrik və buraxılışı 1-3 il aralığında olan yeni, kiçik həcmli daxili yanma mühərrikli avtomobillərin ölkəyə gətirilməsini stimullaşdıran addımların atılması ekoloji tarazlığı bərpa edəcək. Bununla yanaşı, tam elektrikli avtomobillərə digər nəqliyyat vasitələrində olmayan müəyyən imtiyazların verilməsi əhali arasında onlara marağın yaranmasına səbəb olar".

K.Kərimlinin fikrincə, ictimai nəqliyyat şəbəkəsinin hər kəs üçün əlçatan olması avtomobil sahiblərinin də ondan istifadəsinə zəmin yaradar: "Bu baxımdan son illərdə atılan addımlar, xüsusən avtobus hərəkəti üçün ayrılmış xüsusi zolaq bu keçidin sürətlənməsinə səbəb olub. Gələcəkdə istismara yararsız avtomobillərin utilizasiyası, idxal olunan yeni avtomobillərə güzəştlər, ekoloji postların sayının artırılması, yeni avtomobillərin daha əlçatan olması üçün müvafiq addımlar atılması gözlənilir".

## SİSTEM NƏ VAXT İŞƏ BAŞLAYACAQ?

Müsahibimiz bildirdi ki, istismar müddəti bitmiş nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər qəbul olunub: "Tullantılar haqqında" qanuna xüsusi bölmə və yeni maddələr daxil edilib. Hazırda istismar müddəti bitmiş köhnə nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı müvafiq tədbirlər görülür. Fevral ayından artıq bu sistem işə başlayacaq. Ödəmələr olunması üçün fond yaradılır. Sentyabr ayından köhnəlmiş nəqliyyat vasitələri müvafiq özəl şirkətlərdən təşkil olunacaq utilizatorlara təhvil veriləcək".

### ƏHALİYƏ ALTERNATİV TƏKLİF ETMƏLİYİK

F.Mütəllimov qeyd etdi ki, hazırda elektromobillərin istifadəsinin təşviqinə, köhnə nəqliyyat vasitələrinin idxalı ilə bağlı tənzimləmələrin həyata keçirilməsinə daha çox fokuslanılıb. Amma əhaliyə alternativ təklif edilməlidir: "Bu gün hər kəsin bir nəqliyyat vasitəsindən istifadəsi tıxaclara gətirib çıxarır. Lakin ictimai nəqliyyatdan istifadə üçün imkanlar daha da yaxşılaşdırılmalıdır. İctimai nəqliyyat sisteminin yaxşılaşdırılması istiqamətində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən işlər görülür. Metro şəbəkəsinin genişləndirilməsi, müntəzəm marşrut xətlərinin yaxşılaşdırılması, fərdi avtomobillərdən istifadənin azaldılması, velosiped yollarının olması və digər mühərriksiz nəqliyyat vasitələrindən istifadənin artırılması ilə bağlı kompleks tədbirlərin görülməsi nəzərdə tutulur".



Faiq Mütəllimov

## NÖVBƏTİ İLLƏRDƏ ÖLKƏMİZDƏ AVRO-5 STANDARTINA KEÇİD OLACAQ



Eldəniz Cəfər

Nəqliyyat eksperti Eldəniz Cəfər bildirdi ki, Azərbaycanda ekosistemin yaxşılaşdırılması üçün bir sıra yeni layihələr həyata keçirilib: "2022-ci ilin sonunda Yol Xəritəsi hazırlanıb. Ölkəyə idxal olunan ekoloji təmiz nəqliyyat vasitələri gömrük və digər rüsumlardan azad edilib. Görünür, növbəti mərhələdə atmosferə buraxılan zərərli qazların miqdarını azaltmaq üçün yeni qərarlar veriləcək. Bu gün Azərbaycana idxal olunan avtomobillərin ekoloji standartı Avro-4-dür. Növbəti illərdə ölkəmizdə artıq Avro-5 standartına keçid olacaq. Yəqin ki, hazırlıqlar ona doğru gedir".

### AVTOMOBİLLƏRİN 80 FAİZİNİN YAŞI 10 İLDƏN ARTIQDIR

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Faiq Mütəllimovun sözlərinə görə, ölkəmizə idxal olunan 80 faizdən çox avtomobilin istismar ili 10 ildən artıqdır. Burada 30 ildən daha çox yaşı olan avtomobillərin də payı böyükdür: "Vacib məqamlardan biri avtomobillərin mütəmadi texniki baxışdan keçirilməsi və həmin nəqliyyat vasitələrinin mövcud standartlara uyğunluğunun yoxlanılmasıdır. Avtomobilin bir sıra hissələrinin sıradan çıxması ətraf mühitə ciddi təsir göstərə bilər. Ona görə atmosfer havasına atılan çirkləndirici qazların 80 faizdən çoxu məhz nəqliyyat sektorunun üzərinə düşür. Bu da müvafiq tədbirlərin görülməsinin sürətləndirilməsini tələb edir".

# “XAHİŞ ETDİLƏR Kİ, PORTRETİ ANKARAYA APARIM”

**Günay Mehdizadə Zebic: “O muzey Atatürkün evi hesab olunur və çox əhəmiyyətlidir. Çünki Mustafa Kamal Atatürkün Selanikdə dünyaya gəldiyi evin surətidir. Mənim əsərimi ikinci mərtəbədə yerləşdirdilər və dövlət sərvəti adlandırdılar”.**





Fotolar: Səbinə Şəbiyeva/ Global Media Group

Rəsm, sənət onun üçün həyat tərzidir. Tabloları tək ölkəmizdə deyil, dünyanın bir çox ölkələrində muzeylərdə sərgilənir, evləri bəzəyir. Hətta Mustafa Kamal Atatürkə həsr olunan əsəri Türkiyə Cümhuriyyətinin sərvəti hesab olunur və “Atatürk evi”ndə sərgilənir.

Müsahibimiz Azərbaycan Rəssamlar İttifaqının üzvü, tanınmış rəssam Günay Mehdizadə Zebicdir. Günay xanım həm də Xorvatiyanın Azərbaycandakı səfiri Branko Zebicin həyat yoldaşıdır.

**● Günay xanım, istərdim müsahibəyə Türkiyədəki “İstiqlal” sərgisi ilə başlayaq.**

● “İstiqlal” sərgisi iki ölkə arasında qardaşlıq bağlarını qoruyub saxlamaq, bu əlaqələrin möhkəm təməllər üzərində qurulduğunu əks etdirmək, eyni zamanda Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələri daha da yaxınlaşdırmaq, Türkiyə Cümhuriyyətinin 100 illiyi məqsədilə keçirildi. Sərgidə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün gənclik illərini, hakimiyyətdə olduğu dövrü əks etdirən əsərlərlə yanaşı, Azərbaycanın milli-mənəvi dəyərlərindən bəhs edən əsərlər də nümayiş etdirildi. 2023-cü ildə həm də Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd olunurdu və bu sərgini iki liderə həsr etdik.

## “SƏRGİ İLƏ BAĞLI ÇOX GÖZƏL GERİ DÖNÜŞLƏR ALDIQ”

**● Sərgiyə maraq yüksək səviyyədə olub və bu barədə xəbərlər Türkiyə mətbuatında da yer alıb. Qonaqların təəssüratları necə idi?**

● Sərgi ilə bağlı çox gözəl geri dönüşlər aldıq. Sərgiyə Eskişehir Böyükşəhər Bələdiyyə sədri Yılmaz Büyükerşen, araşdırmaçı-yazar Orhan Delipınar, alimlər, tələbələr, qonaqlar və sənətsevərlər qatılmışdı. Sərgidən sonra Eskişehir Böyükşəhər Bələdiyyəsi bizə sürpriz edərək, bələdiyyənin simfonik orkestrinin ifasında Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil etdi.

**● Tarixi şəxsiyyətlərə bağlı əsərləriniz sənətsevərlər tərəfindən maraqla qarşılanır.**

● Hər hansı şəxsiyyətin rəsmini çəkirəmsə, mütləq onun həyatını, əsərlərini araşdırıram. İkinci mərhələdə oxuduğum materialları sintez edirəm. Şəxsiyyəti araşdıraraq mənimsəyirəm və çəkməyə başlayıram. Əvvəlcə eskiz üçün fotolardan istifadə edir, qələmlə kağıza köçürürəm. Ən uğurlusunu tapdıqdan sonra rəsmini çəkirəm. Bu proses çox gərgin olur. Məsələn, “İstiqlal” tablosuna üç il vaxt sərf etmişəm.

## “SÖHBƏT ƏSNASINDA DEDİM Kİ...”

**● “Atatürk Portreti” əsəriniz Ankarada Atatürk Ev Muzeyində sərgilənməkdə və Türkiyə Cümhuriyyəti sərvəti kimi dəyərləndirilməkdədir. Bu əsərin tarixçəsi maraqlıdır...**

● Bir neçə il öncə Türkiyənin Konya şəhərində keçirilən, 65 ölkənin qatıldığı simpoziumda Azərbaycanı təmsil edirdim. Açılışa nazirlikdən nümayəndələr də qatılmışdı. Həmin vaxt Atatürkün portretini işləmişdim və telefonumda idi. Söhbət əsnasında dedim ki, məndə Atatürkün portreti var, baxmaq istəyərsinizmi? Bu, onlar üçün maraqlı oldu və portreti göstərdim. Çox bəyəndilər və xahiş etdilər ki, portreti Ankaraya aparım. Həmin tablonu muzeyə qoydular. O muzey Atatürkün evi hesab olunur və çox əhəmiyyətlidir. Çünki Mustafa Kamal Atatürkün Selanikdə dünyaya gəldiyi evin surətidir. Mənim əsərimi ikinci mərtəbədə yerləşdirdilər və dövlət sərvəti adlandırdılar.

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

> *Hər hansı şəxsiyyətin rəsmini çəkirəmsə, mütləq onun həyatını, əsərlərini araşdırıram. İkinci mərhələdə oxuduğum materialları sintez edirəm.*

## “SİNFİMİZİN DİVAR QƏZETİNİ MƏN HAZIRLAYIRDIM”

**● Əsəri dövlət sərvəti adlandırılan rəssamın fırça və kətanla dostluğu nə vaxtdan başlayıb?**

● Uşaqlıqdan rəssamlıq, musiqi, balet dərslərinə gedirdim. Ən sevdiyim isə rəssamlıq idi. Yadımdadır, məktəbdə divar qəzetləri çıxırdı. Sinfimizin divar qəzetini mən hazırlayırdım. Məhəmməd Füzulinin yubileyində qara qələmlə portretini çəkmişdim. Hamı tərəfindən bəyənildi. Böyüdükdə onu peşəkar formaya salmaq üçün rəssamlıq təhsili aldım. Azərbaycanın Əməkdar rəssamı Bəyimxanım Hacızadənin tələbəsi oldum. Daha sonra İtaliyada, Vyanada rəssamlıq dərsləri aldım. Avropa muzeylərində böyük rəssamlar Leonardo da Vinçi, Mikelancelo, Pikasso kimi sənətkarların əsərlərini saatlarla araşdırırdım. Hər gün səhər muzeyə gedir, axşama qədər o rəssamların rəsmlərinin surətini köçürürdüm. Surəti köçürərkən, rəssam həyatda olmasa belə, ondan öyrənirsən.

**● Yaradıcılığınız rəssamlıqla kifayətlənmir. Siz həm də teatr ssenarisi yazırsınız.**

● Teatr üçün ssenari yazmaq fəaliyyətim də qardaşlıq məktəbindən başladı. Azərbaycandan Türkiyəyə gələn şagirdlərin çıxışları üçün ssenari yazdım. 2019-cu ildə bizi teatr festivalına dəvət etdilər. Nəsimi ilə bağlı ssenari hazırladıq, səhnə dekorasiyasını da özümüz etdik. Bunun davamı olaraq 2021-ci ildə Nizami Gəncəvi və Yunus Əmrə ili ilə bağlı ssenari yazdıq, kostyumlarına qədər özümüz hazırladıq, səhnələşdirdik. Hətta Türkiyə səfiri öz “X” sosial şəbəkə hesabında buna görə bizə təşəkkür etdi.



**● Hindistanla bağlı çəkdiyiniz tablo da həmin ölkənin səfiri tərəfindən bəyənilmişdi. O tablo necə ərsəyə gəldi?**

● Həyat yoldaşımın işi ilə bağlı diplomatik çevrədə olduğum üçün, görüşlərdən birində Hindistanın sabiq səfiri mənə təklif etdi ki, “Hindistanı necə görürəm” adlı rəsm çəkim. Kompozisiyanı qurdum, tablonu təqdim etdim. Sabiq səfir bunu çox bəyəndi və mənə plaket də təqdim etdi. Həmin əsər hazırda Hindistandadır.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
13 YANVAR ŞƏNBƏ 2024
www.kaspi.az

# KLUBLARIMIZIN "QIŞ BAZARLIĞI"

Futbol üzrə Azərbaycan Premyer Liqasında mübarizə aparan klublar mövsümün ikinci yarısına hazırlıqları davam etdirirlər. Transfer pəncərəsi açılsa da, ciddi transferlər gözə dəymir.



ALEKSEY İSAYEV

AARON OLANARE

## "ATLILAR" ALEKSEY İSAYEVİ TRANSFER EDİB

Komada heyətini gücləndirmək istiqamətində fəaliyyəti davam etdirir. "Atlılar" "Sabah"dan Azərbaycan millisinin üzvü Aleksey İsayevi transfer edib. Qeyri-rəsmi məlumatlara görə, 500 min dollar təzminat ödənən yarımmüdafiəçi ilə 3,5 illik müqavilə imzalanıb. "Sabah"ın düşünən beyni olan İsayev "Qarabağ"ın yarımmüdafiə xəttində dərinliyini və yaradıcılıq elementlərini artıracaq. Mütəxəssislərin fikrincə, "Qarabağ"da hazırda yeni oyunçuya ən çox ehtiyacın olduğu mövqe müdafiənin mərkəzidir. Kevin Medina zədəlidir və hələ bir müddət də komandaya kömək edə bilməyəcək. Avropa Liqasında Portuqaliya "Braqa"sı ilə qarşılaşmada Ağdam təmsilçisi şanslarının olmasını istəyirsə, bu mövqeyə yeni oyunçu transfer etməlidir. Məlumata görə, klub axtarışları davam etdirir.

Futbol üzrə Azərbaycan Premyer Liqasında qış fasiləsidir. Klublar mövsümün ikinci yarısına hazırlıqları davam etdirirlər. Artıq transfer pəncərəsi açılıb. Komandalar heyətdə "təmizləmə prosesi"ni də davam etdirirlər. Komandaların yeni keçidlər üçün hələ kifayət qədər - fevralın 8-dək zamanı var.

**İKİYƏ BÖLÜNƏN KLUBLAR**

Öncəki mövsümlərdə qış fasiləsində Premyer Liqa təmsilçilərinin əksəriyyəti ölkə xaricində toplanış keçirdilər. Bu mövsüm isə Azərbaycanı tərk etməyənlər də kifayət qədərdir. Daha dəqiq desək, komandalar ikiyə bölünüblər. Onlardan 5-i - "Qarabağ", "Zirə", "Araz-Naxçıvan", "Qəbələ" və "Kəpəz" ölkəni tərk etməmək qərarına gəliblər. "Neftçi", "Sumqayıt", "Səbail", "Turan Tovuz" və "Sabah" beşliyi isə hazırlıq keçmək üçün Türkiyənin Antalya bölgəsinə üz tutublar.

Bu mövsüm qış fasiləsinin müddəti azdır. Artıq yanvarın 21-də Premyer Liqada XIX tura start veriləcək. Əvvəlki mövsümlərdə isə fasilə fevralın əvvəlinə qədər davam edirdi. Ölkə daxilində qalmaq qərarına gələnlər bunu məhz fasilənin az olması ilə izah edirlər. Antalyaya yollananların əsas üstünlüyü orada fərqli ölkələrdən olan komandalarla yoldaşlıq oyunları keçirmək imkanının olmasıdır. Bu, klublara öz güclərini daha dəqiq qiymətləndirmək imkanı verəcək. Ölkəni tərk etməyənlər isə yalnız yerli klublarla yoxlama oyunlarında üz-üzə gəlməklə kifayətlənməli olacaqlar.

**"QARABAĞ"IN FƏRQLİ HƏDƏFİ**

İlk yarını lider bitirən "Qarabağ"ın mövsümün ikinci hissəsi üçün planlaşdırması digərlərindən fərqlidir. Komanda 41 xal toplayıb və ən yaxın izləyicisi "Zirə"ni 12 xal üstələyir. Böyük ehtimalla qəsəbə təmsilçisi üçün əsas hədəf mövsümü elə ikinci pillədə başa vurmaq olacaq. "Qarabağ" isə turnir cədvəlindəki vəziyyətin verdiyi rahatlıqla çempionatdan daha çox Avropa Liqasının pley-offunu düşünə bilər. Ağdam klubunda yaxın plan üçün diqqətin məhz buna yönəldiyini söyləmək mümkündür.

## BAŞ MƏŞQÇİSİNİ NÖVBƏTİ DƏFƏ DƏYİŞƏN "NEFTÇİ"



Adrian Mutu

Miodraq Bojoviç

"Neftçi" mövsümün ikinci yarısına yeni baş məşqçi ilə başlayacaq. Adrian Mutunun rəhbərliyi altında heç cür istənilən oyunu nümayiş etdirə bilməyən və "Qarabağ"dan 13 xal geri düşərək 3-cü pillədə qərarlaşan "ağ-qaralar" rumıniyalı mütəxəssisi monteneqrolu Miodraq Bojoviçlə əvəzləyib. Təcrübəli mütəxəssis əvvəlki komandalarında aqressiv hücum futbolu oynatması ilə diqqət çəkib. Bu səbəbdən azarkeşlərin ondan gözləntiləri böyükdür.

"Neftçi"nin heyətində də ciddi dəyişikliklər olacağı gözlənilir. Bir müddət əvvəl yarımmüdafiəçi Kenni Sayef komandanı tərk etmişdisə, artıq Aaron Olanare ilə də yollar ayrılıb. Bojoviç açıqlamalarında heyətin bu mövsüm üçün hədəflərə çatmağa kifayət etdiyini söyləyib. Lakin o, eyni zamanda iki hücumçu ilə güclənməyin vacibliyini qabardıb. "Neftçi" üçün qarşıdakı dönəmdə əsas hədəf mövsümü ilk iki pillədən birində bitirmək və ölkə kubokunu qazanmaqdır.

## DİGƏR KLUBLARDA ÜMUMİ VƏZİYYƏT NECƏDİR?

Digər klublara gəlincə, transfer məsələsində hələlik elə də ciddi aktivlik müşahidə olunmur. Mükafatlar uğrunda mübarizə aparan "Zirə"də yarımmüdafiəçi Andriya Lukoviç yola salınıb, hücum xəttinə "Qəbələ"dən tanıdığımız Rafael Utziq cəlb olunub. "Qəbələ" isə Klesio Bauku geri qaytarıb. Sonuncu pillədə "qırmızı-qaralar"a şərik olan "Kəpəz" "Səbail"də az şans qazanan Amil Yunanovu heyətinə qatıb.

"Araz-Naxçıvan", "Sumqayıt", "Turan Tovuz" və "Sabah"da tamamilə sakitlik hökm sürür. Xüsusilə sonuncuda aktivliyin olacağını ehtimal etmək olar. "Sabah" 8-ci pillədədir və hədəflərindən xeyli uzaq düşüb. Aleksey İsayevin gedişinin isə yarımmüdafiədə ciddi çatışmazlıq yaradacağı şübhəsizdir. Paytaxt təmsilçisi hazırda həm bu boşluğu aradan qaldırmaq, həm də digər mövqeləri gücləndirmək barədə düşünür. "Sumqayıt" və "Səbail"də də heyətlə bağlı problem mövcuddur. Hər iki komandada uzunmüddətli zədəyə məruz qalan oyunçular var.



Amil Yunanov

Rafael Utziq

Ümumən klublarımız sanki "qış yuxusu"ndadırlar. Bununla belə, hələ daha yaxşı hazırlaşmaq üçün də, heyəti komplektləşdirmək üçün də vaxt var. Hansı klubun bu dövrdən daha yaxşı yararlandığı isə mövsümün sonunda məlum olacaq.